RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 22 (8901) ÇƏRŞƏNBƏ AXŞAMI, 1 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLHAM ƏLİYEV: "18 ildir ki, mən ölkə Prezidentiyəm və dəfə Gəncədə olmuşam"





## Erməni faşizmini unutmamalıyıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərinə səfəri çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə verib.

Bax: səh. 4

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərində səfərdə olub

AZƏRTAC xəbər verir ki, dövlət başçısı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyev Gəncə Dövlət Dram Teatrının yeni binasının, 2 saylı Gəncə Regional "ASAN xidmət" Mərkəzinin açılışlarında iştirak edib.

Dövlət başçısı Gəncə İdman Sarayında aparılan tikinti işlərinin gedişi ilə tanış olub, "Azərbaycan Dəmir Yolları" QSC-nin Lokomotiv Deposunun açılışında iştirak edib, Gəncə Memorial Kompleksinin təməlini qoyub.

Bax: səh. 2-3

## Xalqın arzu və istəklərini gerçəkləşdirən partiya



44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin möcüzə təsiri bağışlayan qələbəsi bütün dünyada şok effekti doğurdu, Azərbaycan xalqına mübariz, döyüşkən, qəhrəman xalq kimi sonsuz hörmət qazandırdı.

Əslində, Qarabağ uğrunda Vətən müharibəsindəki möhtəşəm qələbə Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə 30 ildə Azərbaycan dövlətinin və cəmiyyətinin keçdiyi yolun, bütün sahələrdə qazandığı nailiyyətlərin yekunu, həm də qiymətləndirilməsi sayıla bilər!

Bu qələbə göstərdi ki, Heydər Əliyev yolu yeganə doğru yoldur ki, ölkənin milli maraqlarını qorumağı və təminini, sürətli və davamlı inkişafını, ən çətin və mürəkkəb problemlərin uğurlu həllini təmin edə bilir.

Bax: səh. 7

## Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazanıb




### "Rossiya 24" telekanalında Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş "Hakimiyyət formulu" verilişi yayımlanıb

Yanvarın 30-da "Rossiya 24" telekanalında TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Azərbaycan Prezidenti İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş "Hakimiyyət formulu" verilişi yayımlanıb. AZƏRTAC həmin verilişin mətnini təqdim edir.

**Müəllifdən:** Azərbaycan Cənubi Qafqazın Şərqində, Xəzər dənizinin sahilində yerləşir. Ölkənin ümumi sahəsi 86,6 min kvadratkilometrdir. Şimalda Rusiya Federasiyası, şimal-qərbdə Gürcüstan, qərbdə Ermənistan, cənub-qərbdə Türkiyə, cənubda isə İran ilə həmsərhəddir. Quru sərhədlərinin uzunluğu 2647 kilometr, dəniz sərhədlərinin uzunluğu isə 816 kilometrdir. Əhalisi 10 milyon 383 min 704 nəfər, paytaxtı Bakı şəhəridir. Bir neçə ay bundan əvvəl Azərbaycan dövlət müstəqilliyinin bərpasının 30 illiyini qeyd edib.

**Mixail QUSMAN:** "Hakimiyyət formulu" verilişində Azərbaycan Prezidenti İlham Əliyev ilə dəfələrlə görüşmüşük. Lakin hər dəfə bizim görüşlərimiz çox maraqlı, məzmunlu, dərin xarakter daşıyıb. Bu gün mən filmimizə 10 il bundan əvvəl olmuş bir söhbət epizodundan başlamaq istərdim: "İlham Heydər oğlu, istər-istəməz artıq 50 yaşın astanasındasınız. Çox iş görülüb. Şəxsən siz öz qarşınızda növbəti yarım əsr üçün hansı vəzifələri qoyursunuz?

**Prezident İlham ƏLİYEV:** Açığını deyim ki, mən həyatda qabaqcadan qarşıma heç bir vəzifə qoymuram. Amma Prezident kimi bunu özümə rəva görə bilmərəm, çünki əgər gələcəyi düşünməsək, bu günün problemlərini həll etmək çox çətin olacaqdır. Lakin mən, məhz sizin dediyiniz kimi, yarım əsr irəliyə baxıram. Energetika sahəsində bu müddət 100 ildir. Yəni Azərbaycan ən azı yüz il beynəlxalq enerji bazarında əvəzedilməz və çox mühüm aktora çevrilir. Biz nəqliyyat sahəsində elə infrastruktur yaradırıq ki, o, əsrlər boyu ölkəmizin rifahı naminə işləyəcək. Təhsil - o da bir neçə onillik irəlini nəzərdə tutmalıdır.

**Mixail QUSMAN:** Bunlar gələcəyə investisiyalardır.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, kadrların, informasiya texnologiyalarının hazırlanması. Dünya irəliyə doğru hərəkət edir, biz də geri qalmamalıyıq. Əgər istək, siyasi iradə və yaxşı təşəbbüskarlıq varsa, çox iş görmək olar.

**Mixail QUSMAN:** O vaxtdan 10 il keçib. Bir neçə ay bundan əvvəl Azərbaycan dövlət müstəqilliyinin bərpasının 30 illiyini, bir ay bundan əvvəl isə Azərbaycan Prezidenti İlham Əliyev 60 illik yubileyini qeyd edib. Ölkə yetkinləşir, təcrübə toplayır, dünyada daha mühüm yer tutur və bunu BMT Baş Assambleyasının tribunasından bəyan edir.

**Prezident İlham ƏLİYEV:** BMT-nin Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan 2030-cu ilin gündəliyinin icrası barədə üçüncü Könüllü Milli Hesabat təqdim etmiş 12 ölkədən biri və öz regionunda birinci dövlətdir.

Ardı 5-ci səh.

## Azərbaycan ilə Çin arasında dostluq münasibətlərinin bugünkü səviyyəsi və dinamikası böyük məmnunluq doğurur



### Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr!

Sizi və Sizin simanızda dost Çin xalqını Yeni ilin gəlişini simvolizə edən Bahar bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Dərin tarixi kökləri olan və xalqınızın zəngin milli-mənəvi irsini özündə bariz şəkildə ifadə edən bu bayramın ölkənizə və xalqınıza əmin-amanlıq, firavanlıq, bol ruzi-bərəkət bəxş etməsini diləyirəm.

Azərbaycan ilə Çin arasında dostluq münasibətlərinin bugünkü səviyyəsi və dinamikası böyük məmnunluq doğurur. Əminəm ki, ölkələrimiz arasında siyasi, iqtisadi-ticari, enerji, sənaye və digər sahələrdə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq birgə səylərimizlə bundan sonra da uğurla inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək Pekin Qış Olimpiya Oyunlarının keçirilməsində Çin Xalq Respublikasına uğurlar arzulayır, bu beynəlxalq yarışların möhtəşəm idman bayramına çevriləcəyinə inamımı ifadə edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər, dost Çin xalqına daim rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2022-ci il*

# İLHAM ƏLİYEV: "18 ildir ki, mən ölkə Prezidentiyəm və 18 dəfə Gəncədə olmuşam"

## Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərində səfərdə olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

## Prezident İlham Əliyev Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Gəncə Dövlət Dram Teatrı 1921-ci ildə Bakıda yaradılıb. 1925-ci ilədək "Tənqid-təbliğ" teatrı, 1932-ci ilədək "Bakı-işçi-kəndli" teatrı adlandırılıb. 1932-ci ilin dekabr ayında teatr bütün heyəti ilə birlikdə Gəncəyə köçürülüb və fəaliyyətini burada davam etdirib. Görkəmli teatr xadimləri İsmayıl Talıblı, Ələsgər Ələkbərov, Ağasadıq Gəraybəyli, Ağahüseyn Cavadov, Mehdi Məmmədov, Kazım Ziya, Fatma Qədri, Əmir Dadaşlı, Rəmziyyə Veysəlova kimi şəxsiyyətlərin sənət yolu məhz buradan keçib.



Dövlət başçısına Gəncə Dövlət Dram Teatrının yeni binasında görülən işlərlə bağlı məlumat verildi.

Qeyd edildi ki, Gəncə Dövlət Dram Teatrının 2014-cü ildə təməli qoyulan yeni binasında 478 yerlik böyük tamaşaçı zalı, 22 tamaşaçı yerlik lojalar və 120 yerlik kiçik tamaşaçı zalı var. Yeddimərtəbəli binada, həmçinin iki zaldan, 135 eksponat və rəsm əsərlərindən ibarət Gəncə Teatr Muzeyi, zəngin kitabxana, xoreoqrafiya zalı, qrim otaqları, mehmanxana, kafe və digər zəruri infrastruktur yaradılıb. Bir sözlə, teatrın yeni binasında tamaşaların nümayişi üçün müasir texniki şərait təmin edilib, yaradıcı heyətin məşqləri ilə bağlı bütün məqamlar nəzərə alınıb.





## Prezident İlham Əliyev 2 saylı Gəncə Regional "ASAN xidmət" Mərkəzinin açılışını edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzinin açılışını edib.

AZƏRTAC xəbər verir ki, bu mərkəz ölkə üzrə sayca iyirmi ikincidir. Vətəndaş əhatəsinə nəzər salsaq görərik ki, Gəncə şəhəri, Şəmkir, Gədəbəy, Göygöl, Goranboy, Samux, Naftalan, Kəlbəcər və Xocalı rayonlarını əhatə edən bu bölgədə qeydiyyatda olan ümumilikdə 1 milyona yaxın insan var. Lakin mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlət başçısına Mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, mərkəzdə vətəndaşlara müxtəlif dövlət qurumları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 320-dən çox xidmət göstəriləcək. Mərkəzdə əməkdaşların sayı 208, könüllülərin sayı 85 nəfər nəzərdə tutulur. "ASAN xidmət" mərkəzinin işçilərinin sayı 40 nəfərdir ki, onlar da əsasən şəhid ailəsi üzvləri, qazilər və "ASAN könüllüləri"ndən təşkil olunub.

Prezident İlham Əliyev 2 saylı Gəncə Regional "ASAN xidmət" Mərkəzini işə saldı.

"ASAN xidmət" konsepsiyasının mühüm tərkib hissələrindən biri könüllülərdir. İndiyədək prosesə 28 mindən çox könüllü gənc qoşulub. Onlar tərəfindən 3000-dən çox təlim, 700-dən çox layihə həyata keçirilib. 2700-dən çox könüllü isə "ASAN kadr" portalı vasitəsilə işlə təmin olunub.

Yarandığı ilk gündən ASAN vətəndaş məmnunluğu əmsalına görə fərqlənib. İndiyədək mərkəzlərə 7 milyon 710 mindən çox vətəndaşın 50 milyona yaxın müraciəti daxil olub. Vətəndaşların məmnunluq əmsalı isə 99,5 faizə bərabərdir.

**Ülvi MEHDİYEV:** Cənab Prezident, sizə innovasiyalarla bağlı yerli bir məhsul da təqdim etmək istəyirəm. Həyətdə quraşdırılıb, strateji obyektlər, dövlət sərhədi üçün lazım olan mühafizə skaneridir. Özünü elektrik enerjisi ilə Günəş paneli vasitəsilə qidalandırır, kamera və işığı var.

**Prezident İlham ƏLİYEV:** Deməli, yaxınlaşdı, toxundu, dərhal...

**Ülvi MEHDİYEV:** Dərhal həyəcan siqnalı və bu hansı blokda baş verdiyini göstərir.

**Prezident İlham ƏLİYEV:** Orada sensorlar var?

**Ülvi MEHDİYEV:** Bəli, sensorlar var. Deməli, bunu kəsə bilər, aralaya bilər, bloku zədələyə bilərlər. Dərhal siqnal verir. Hətta özü xarab olursa, sistemin özünə müdaxilə olursa, onda da özü çağırış verir ki, buraya müdaxilə olundu.

Növbəti innovativ yenilik - "ASAN kömək" vasitəsilə xarici ölkələrə səfər edən vətəndaşların köməyə ehtiyacı olarkən, eyni zamanda təcili və təxliyə hallarında faydalana biləcəkləri mobil proqramdır.

"Smeta-Normativ və Qiymətqoyma" İnformasiya Sistemi vasitəsilə isə müxtəlif istiqamətlər üzrə məlumatların toplanması, təhlil edilməsi, digər əlaqəli dövlət informasiya sistemlərinə ötürülməsi və aidiyyəti qurumlar üçün hesabatlılığın təmin edilməsi mümkün olacaq.

**Ülvi MEHDİYEV:** Cənab Prezident, bu rəqəmsal icra hakimiyyəti sistemi ilə biz həm fiziki olaraq icra hakimiyyətlərinin ASAN standartına uyğunluğunu təmin edirik, eyni zamanda bu sistem vasitəsilə icra qurumlarının bütün xidmətlərini elektronlaşdırmışıq. Noyabr ayında istifadəyə vermişik, artıq 2437-dən çox istifadəçi yararlanıbdır.

**Prezident İlham ƏLİYEV:** Burada sizdə var? Quraşdırılır?

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı **Niyazi BAYRAMOV:** Bizim işçilər burada oturacaqlar, cənab Prezident. İcra hakimiyyətinin, Nizami, Kəpəz rayonlarının nümayəndələri burada olacaqlar.

**Ülvi MEHDİYEV:** Pilot olaraq Gəncə, Quba və Masallıdan başlamışıq.

**Prezident İlham ƏLİYEV:** Səmərəliliyi var?

**Niyazi BAYRAMOV:** Olacaq, bəli.

Azərbaycanın intellektual brendi olan ASAN konsepsiyası həm də ixrac səbətində yer alır, agentliyin ekspertləri tərəfindən müxtəlif ölkələrdə təlimlər keçirilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirilir.











# İLHAM ƏLİYEV: “18 ildir ki, mən ölkə Prezidentiyəm və 18 dəfə Gəncədə olmuşam”

## Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə tanışlıq





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, ikimərtəbəli Gəncə İdman Sarayında böyük idman zalı, üzgüçülük hovuzu, beynəlxalq turnirlərin keçirilməsi üçün məkan, şahmat, güləş, boks və idmanın digər növləri üzrə məktəblər fəaliyyət göstərəcək.

Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramlarının uğurlu icrasını təmin edən əsas məsələlərdən biri Prezidentin infrastruktur layihələrinin tikintisinin gedişi ilə yerində tanış olmasıdır.

Qeyd edək ki, dövlət başçısı 2020-ci il iyunun 24-də Gəncəyə səfəri çərçivəsində bu idman qurğusunda inşaat işlərinin gedişi ilə tanış olmuş və müvafiq tapşırıqlarını vermişdi. Bundan sonra obyektdə tikinti işlərinin sürəti daha da artmışdır.

## Prezident İlham Əliyev Gəncə Memorial Kompleksinin təməlini qoyub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə Memorial Kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı kompleksin yaradılacağı ərazi ilə tanış oldu. Prezident İlham Əliyevə kompleks barədə məlumat verildi.

Vətən müharibəsi dövründə Gəncə şəhəri oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı “Toçka-U”, “Smerç”, “SCUD” və digər raket qurğularından endirilən zərbələrə məruz qalıb. Nəticədə 6-sı uşaq olmaqla, 26 mülki şəxs həlak olub, 31-i uşaq olmaqla, 142 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumu nəticəsində həlak olan dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstəsi qoydu.

Münaqişə bölgəsindən kilometrlərlə kənar ərazilərin qadağan olunmuş kaset bombalarla hədəfə alınması nə beynəlxalq hüquqa, o cümlədən Ermənistanın 1993-cü ildə ratifikasiya etdiyi Cenevrə konvensiyalarına və onların əlavə protokollarına, nə müharibənin əxlaq kodeksinə, nə də, ümumiyyətlə, heç bir mənəvi müstəviyə uyğun deyildi. Bu ifadənin dəqiq definisiyası “alçaqcasına hücum”dur. Azərbaycan isə müharibənin ilk günündən heç bir halda mülki əhaliyə atəş açmır, yalnız legitim hərbi hədəfləri zərərsizləşdirir, qisasımızı döyüş meydanında alırdı.

Ermənistanın raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsi isə bu ərazini ziyarətə gələn hər kəs tərəfindən ehtiramla anılır.

Prezident İlham Əliyev Gəncə Memorial Kompleksinin təməlini qoydu.








## “Azərbaycan Dəmir Yolları” QSC-nin Gəncə Lokomotiv Deposu istismara verilib








Yanvarın 30-da Gəncədə “Azərbaycan Dəmir Yolları” QSC-nin Lokomotiv Deposu istismara verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dördüncü Regional İnkişaf Proqramı çərçivəsində icra olunan növbəti layihə Gəncə Lokomotiv Deposudur. Yeni depoda dəyişən cərəyanla işləyən elektrovozların texniki xidməti və təmiri işləri həyata keçiriləcək. 2021-ci ilin noyabrında açılışı olan Biləcəri Lokomotiv Deposu ilə bərabər, Gəncə deposu Azərbaycan Hökuməti ilə Fransa İnkişaf Agentliyinin birgə maliyyəsi hesabına inşa edilib.

Dövlət başçısı deponu işə saldı.

Bildirildi ki, əsas təmir zonasında eyni vaxtda 6 lokomotivə xidmət etməyə imkan verən ikimərtəbəli platforma mövcuddur. Yeni depo sifariş edilmiş bütün dəyişən cərəyanlı lokomotivlərə fasiləsiz olaraq texniki xidmət göstərmək qabiliyyətindədir.





Gəncə Lokomotiv Deposu ABŞ, Almaniya, İngiltərə, Hollandiya, İtaliya, Türkiyə, Koreya Respublikası, Çin, Rusiya və bir sıra digər ölkələrin istehsalı olan müasir avadanlıq və cihazlarla təchiz olunub. Həmçinin depo ərazisində 350 ədəd günəş paneli quraşdırılıb ki, bu da enerjiyə olan tələbatın bir hissəsini qarşılamaq imkanı yaradır.

Yeni depoda 75 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Gəncə Lokomotiv Deposunun istismarı enerji resurslarına qənaətə, xərclərin azalmasına, təmir və texniki xidmətin optimallaşdırılmasına, istismarın etibarlılığının artırılmasına və fasiləsiz daşımaların təmin olunmasına imkan yaradacaq.

# Erməni faşizmini unutmamalıyıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərinə səfəri çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.



**Prezident İlham Əliyevin AZƏRTAC-a müsahibəsi**

***Müxbir:** Cənab Prezident, öncə suallarımızı cavablandırdığınız üçün minnətdarlığımızı bildiririk. Cənab Prezident, dəfələrlə Gəncə şəhərində olmusunuz, şəhərdə xeyli işlər görülüb. Bu işlər barədə fikirlərinizi bilmək istərdik.*

**Prezident İlham ƏLİYEV:** Bu, mənim Gəncəyə Prezident kimi 18-ci səfərimdir. Belə çıxır ki, orta hesabla hər il Gəncədə səfərdə oluram. Elə illər olub ki, iki dəfə olmuşam. Həm ona görə ki, Gəncə Azərbaycanın ikinci şəhəridir və bu şəhərə daim diqqət həmişə yüksək səviyyədə olub. İkincisi, ona görə ki, bir çox layihələr Gəncə şəhərində icra edilib və bu layihələrin icrası davam edir. Gəncə şəhərinin kompleks inkişaf planı həm təsdiqlənib, həm də uğurla icra edilir. On səkkiz ildir ki, mən ölkə Prezidentiyəm və 18 dəfə Gəncədə olmuşam.

Son illərdə biz Gəncənin əsas infrastruktur layihələrini icra etməyə çalışdıq və bu layihələrin böyük əksəriyyəti öz həllini tapdı. Elektrik enerjisi ilə təchizat tam öz həllini tapmışdır. Gəncədə 10 yarımstansiya həm yenidən tikilib, həm də əsaslı təmir edilib. Onların enerji istehsalı gücü 220 meqavatdır, şəhərin tələbatını tam ödəyir. Eyni zamanda şəhərin artan tələbatı, o cümlədən sənaye potensialı da nəzərə alınacaqdır.

Qazlaşdırma layihəsi tam icra edilibdir. İçməli su layihəsi hələ ki, icra edilir. Əfsuslar olsun ki, bu layihə bir qədər uzandı. Düzdür, çox genişmiqyaslı layihədir, həm də maliyyətutumlu layihədir, təqribən 800 milyon manat dəyərində olan bir layihədir. Bu layihənin icrası nəticəsində Gəncə şəhərinin içməli su və kanalizasiya problemləri birdəfəlik həll olunacaq. Mənə verilən son məlumata görə, hazırda bu layihənin icrası 42 faiz səviyyəsindədir. Əlbəttə, əlavə tapşırıqlar veriləcək ki, bu layihənin icrası sürətləndirilsin, Gəncə şəhərinin bu problemi də öz həllini tapsın.

Avtomobil yollarının çəkilişi ilə bağlı deyə bilərəm ki, indi bütün ölkədə olduğu kimi, Gəncəyə gedən yollar tam müasirləşdirilib. Həm Bakı-Gəncə avtomobil yolunun, həm də Gəncə-Qazax-Gürcüstan sərhədi yolunun çəkilişi başa çatıb. İndi biz bu yolu iki zolaqdan dörd zolağa genişləndiririk. Eyni zamanda Gəncədən digər şəhərlərə - Göygöl, Daşkəsən şəhərlərinə gedən yollarda da əsaslı təmir işləri aparılmışdır.

Bildiyiniz kimi, Gəncəyə Bakıdan dəmir yolu xətti də tam modernləşdirilib. Bu, əslində, "Şərq-Qərb nəqliyyat dəhlizi"nin bir parçasıdır. İndi xəttə sürətli qatarlar da buraxılıb. Dünyanın aparıcı İsveçrə şirkəti tərəfindən istehsal edilən bu qatarlar həm vaxt baxımından çox əlverişlidir, həm də ki, komfortludur. Hazırda Bakıdan Gəncəyə və Gəncədən Bakıya yüksəksürətli qatarlar işləyir. Bu, əlbəttə ki, insanların rahatlığı üçün də çox önəmli bir məsələdir. Həm avtomobil yolu ilə rahat gəlmək olur, həm də hava məkanı qonaqlar üçün, Azərbaycan vətəndaşları üçün indi tam müasir səviyyəyə uyğundur. Gəncə Beynəlxalq Hava Limanı uzun illər bundan əvvəl mənim təşəbbüsümlə yenidən qurulmuşdur.

Yəni bunlar əsas infrastruktur layihələridir. Bunlar həll olunmadan şəhərin inkişafından söhbət gedə bilməzdi. Bununla paralel olaraq, əlbəttə ki, həm səhiyyə, həm təhsil sahəsində bütün sosial infrastruktur yenilənib. Baxın, indi Gəncədə 245 çarpayılıq şəhər xəstəxanası demək olar ki, yenidən tikilib və əlavə 200 çarpayılıq modul tipli xəstəxana quraşdırılıb. Təhsillə bağlı. Şəhərdə 30-dan çox məktəb tikilib və təmir edilib. Bu problemin böyük hissəsi öz həllini tapıb. Dövlət Aqrar Universitetinin iki yataqxanası istifadəyə verilib. Mən hər ikisinin açılışında iştirak etmişəm və tədris korpusu yenidən qurulub. Nəzərə alsaq ki, hazırda ölkə iqtisadiyyatı üçün kənd təsərrüfatı xüsusi önəm daşıyır, bu təhsil mərkəzinin müasirləşdirilməsi, əlbəttə, çox böyük əhəmiyyətə malik idi.

Eyni zamanda Gəncənin mədəni həyatı çox zəngindir. Həm dövlət filarmoniyasının yeni binası tikilib, həm də dram teatrının. Yəni Gəncənin hərtərəfli inkişafı ilə bağlı işlər görülür, o cümlədən parklar, xiyabanlar, istirahət və əyləncə zonaları yenidən qurulur. Görülən bütün bu işlər düzgün müəyyən edilmiş siyasətin nəticəsidir.

Bir də ki, İkinci Qarabağ müharibəsindən sonra Gəncə, eyni zamanda Kəlbəcər rayonunun inkişafı ilə bağlı öz sözünü deyir və deməlidir. Çünki hazırda bizim Kəlbəcərə yeganə, yəni rahat gedə biləcəyimiz yol Gəncədən Göygölə, Göygöldən Kəlbəcərədir. Rahat deyəndə, biz ancaq yaz-yay mövsümlərində o yoldan rahat istifadə edə bilərik. Çünki qış aylarında yol həm bəzi yerlərdə keçilməz, həm də çox təhlükəli olur. Bu yol faktiki olaraq sovet vaxtında olmayıb, bir cığır idi. Biz qısa müddət ərzində o cığırı genişləndirdik və mən özüm də keçən il o yolla Kəlbəcərə getmişdim, Murov aşırımından keçərək. Hazırda Murov dağının altından böyük - uzunluğu təqribən 12 kilometr olan tunel çəkilir. Yəni Kəlbəcərin gələcək inkişafı, vətəndaşların oraya qayıtmaları və Kəlbəcər rayonunun, eyni zamanda Laçın rayonunun təchizatı böyük dərəcədə bu bölgədən təşkil ediləcəkdir. Ona görə Gəncə və bu zona azad edilmiş torpaqların bərpası, vətəndaşların rahat yaşaması üçün xüsusi əhəmiyyət daşıyır. Hazırda bizim hərbi postlarımıza, bizim sərhəd boyunca yerləşən postlara da əsas təchizat buradan gedir. Ona görə Gəncə və Gəncənin ətrafında yerləşən ərazilərin bundan sonra da ölkəmizin həyatında, xüsusilə azad edilmiş torpaqların həyatında xüsusi rolu olacaqdır.

Əlbəttə ki, şəhərin əhalisi artır. Əhalinin bu artımına və müasir tələblərə uyğunlaşmaq üçün biz, əlbəttə ki, əlavə addımlar atırıq və atacağıq. Eyni zamanda hazırda Daşkəsən rayonunda dağ-mədən sənayesinin uğurla inkişafı da böyük dərəcədə Gəncədəki infrastrukturla bağlı olacaq. Çünki orada həm qızıl yataqları, həm də dəmir filizi yataqları mövcuddur. Bu işlərin sürətləndirilməsi üçün əlavə göstərişlər verilib. Dəmir filizi yataqlarından səmərəli istifadə etmək üçün zəncirvari sənaye klasteri yaradılmalıdır. Əlbəttə ki, Gəncənin də burada xüsusi rolu olacaqdır. Bir sözlə, Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramlarının icrası nəticəsində Gəncə şəhəri həmişə xüsusi yerə malik olubdur. Bu gün də belədir, sabah da belə olacaq.

*- Cənab Prezident, bu gün də bir neçə mühüm obyektin açılışını etdiniz. Bu açılışlar nəyi göstərir? Bu açılışlar barədə nələri deyə bilərsiniz?*

- Əslində, bu açılışlar onu göstərir ki, Gəncənin inkişafı və şəhərin problemlərinin həlli daim diqqət mərkəzindədir. Həm də, onu göstərir ki, baxmayaraq, bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara - Qarabağa və Zəngəzuradır, eyni zamanda bütün başqa şəhər və rayonlarımız daim diqqətlə əhatə olunur. Əgər mənim təkcə bugünkü proqramıma nəzər salsaq, görərik ki, bir çox önəmli obyektin açılışı oldu, təməlqoyma mərasimi oldu. Onların içində, əlbəttə ki, "ASAN xidmət" mərkəzinin açılışını xüsusilə qeyd etmək istəyirəm. Bir neçə il bundan əvvəl Gəncədə "ASAN xidmət" mərkəzi açılmışdır. Ancaq tələbat o qədər böyükdür ki, növbələr yarandı. Əlbəttə ki, "ASAN xidmət"in xüsusiyyətlərindən biri həm şəffaflıqdır, müasir xidmətlərin göstərilməsidir, həm də rahatlıqdır. Ona görə biz xidmətin adını "ASAN" qoymuşuq. Əgər növbə yaranırsa və insanlar saatlarla növbədə dayanırsa, bu, artıq "ASAN xidmət" olmadı. Ona görə mənim göstərişimlə ikinci "ASAN xidmət" mərkəzi yaradıldı, birincidən daha böyük. Bu xidmət artıq bu gün rəsmən açıldı və bir neçə gündən sonra öz qapılarını vətəndaşların üzünə açacaq. Beləliklə, növbələr artıq aradan götürüləcək.

Eyni zamanda bu gün Gəncə Dram Teatrının açılışı oldu. Təəssüf edirəm ki, pandemiyaya görə teatrın truppası ilə görüşə bilmədim. Ancaq yadımdadır ki, mən bir neçə il bundan əvvəl Gəncədə olarkən teatrın truppasının nümayəndələri şəhərdə dram teatrının tikilməsi ilə bağlı mənə müraciət etmişdilər. Mən də onlara söz vermişdim ki, bu müraciəti nəzərə alacağam. Həm memarlıq, həm də funksionallıq baxımından çox gözəl, möhtəşəm dram teatrı açıldı. Yenə də deyirəm, ölkə qarşısında bir çox problemlər var və bu problemlər təxirəsalınmaz həllini gözləyir. Amma buna baxmayaraq, mədəniyyətə, şəhərin, Gəncənin mədəni həyatına töhfə verə biləcək hər bir təşəbbüs dəstəklənməlidir. Neçə ki, bir neçə il bundan əvvəl Gəncə Filarmoniyası açıldı. Baxın, bu filarmoniyanın açılması Gəncə şəhərinin mədəni həyatına nə qədər töhfə veribdir, eyni zamanda şəhərin ümumi görünüşünə gözəl töhfə olubdur. Çünki memarlıq baxımından çox gözəl bir binadır. dram teatrı da çox möhtəşəm binadır və orada artistlər, truppa üzvləri və tamaşaçılar üçün gözəl şərait yaradılıb.

Bu gün, eyni zamanda Gəncə İdman Sarayının tikintisi ilə tanış oldum. Bu sarayı da mənim təşəbbüsümlə inşa etməyə başlamışıq. Bu, çox böyük layihədir. Deyə bilərəm ki, Azərbaycanda bu boyda idman sarayı yoxdur, hətta Bakı şəhərində. Baxmayaraq ki, Bakı şəhərində bir çox idman sarayları var, - ancaq bütün əsas idman növlərinin bir yerdə cəmləşməsi Bakıda yoxdur. Burada isə həm döyüş idman növləri, güləş, boks, həm məktəblər - güləş məktəbi, boks məktəbi, həmçinin əl oyunları üçün xüsusi zal - basketbol, voleybol, həndbol, 50 metrlik üzgüçülük hovuzu, yardımçı otaqlar və zallar, hotel. Yəni bir daha demək istəyirəm ki, bu, ölkəmizin ən böyük idman sarayıdır. Bu sarayı Gəncədə inşa etmək gəncəlilərə edilən bir hədiyyədir. Onu da bildirməliyəm ki, hələ mən Prezident olmadığım dövrdə, Milli Olimpiya Komitəsinin prezidenti kimi Gəncədə Olimpiya Mərkəzinin yaradılması ilə bağlı təşəbbüslə çıxış etmişdim və o idman qurğusu o vaxt inşa olunub. Ancaq illər keçdikcə, əlbəttə ki, bu idman obyekti həm fiziki, həm mənəvi cəhətdən köhnəlib və orada normal məşq etmək üçün şərait o qədər də uyğun deyildi. Amma bu idman sarayı əminəm ki, gələn ilin sonuna qədər istifadəyə veriləcək, həm idmançılar, həm də şəhər sakinləri üçün çox faydalı olacaq. Çünki mən hesab edirəm və haqlıyam ki, hər bir insan idmanla məşğul olmalıdır. Yəni bu obyektlərin açılması və təməlinin qoyulması, əlbəttə ki, şəhərə olan qayğının təzahürüdür.

Gəncədə lokomotiv deposunun yaradılması artıq başa çatıb. Buna da çox böyük ehtiyac var. Çünki qeyd etdiyim kimi, Gəncədən "Şərq-Qərb nəqliyyat dəhlizi" keçir. Bakıda bu yaxınlarda lokomotiv deposu açılmışdır, ikinci depo isə Gəncədə açıldı. Görün, bugünkü proqramın nə qədər böyük əhatə dairəsi var. Bütün bu açılışlar və təməlqoyma mərasimləri göstərir ki, ölkəmizin hər bir yerində inkişaf getməlidir, davam etməlidir, biz əldə olunmuş nailiyyətlərlə kifayətlənməməliyik, yalnız irəliyə getməliyik və bütün gücümüzü səfərbər edib insanlar üçün daha yaxşı həyat şəraiti yaratmalıyıq.

*- Cənab Prezident, bu gün siz, eyni zamanda Vətən müharibəsi ərzində erməni faşist ordusu tərəfindən dağıdılmış ərazidə Memorial Kompleksin təməlini qoydunuz. Bununla bağlı fikirlərinizi bilmək istərdik.*

- Bilirsiniz, bu dağılmış evlərin önündə olmaq, bax bu dəhşətli mənzərəni seyr etmək hər bir azərbaycanlı üçün çox ağırdır. İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i partlayaraq əfsuslar olsun ki, insanların həyatına son qoyub, beş raket isə partlamayıb. Bu da öz növbəsində onu göstərir ki, Ermənistan ordusu nə vəziyyətdə idi. Ancaq bu namərd atəş nəticəsində həlak olan vətəndaşlarımız yaşamalı idi. Onların arasında uşaqlar, qadınlar, yaşlı insanlar da var idi, 6 uşaq həlak oldu. Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş namərd atəş nəticəsində həlak oldu, erməni faşizminin qurbanı oldu. Gəncə şəhəri həm "Toçka-U", həm "SCUD" raketləri ilə atəşə tutulurdu. Biz bu məsələ ilə bağlı öz sözümüzü deyəndə Ermənistan tərəfi bunu inkar edirdi. Sonra da yalançı Ermənistan təbliğatı növbəti uydurma ortaya qoyaraq bəyan etmişdi ki, Azərbaycan özü öz şəhərlərini atəşə tutur. Görün nə dərəcədə alçaqlıq və vicdansızlıqdır. Necə ki, vaxtilə ermənilər deyirdilər, azərbaycanlılar özləri Xocalı soyqırımını törədiblər. Bu dəfə də ermənilər öz yalanlarının, necə deyərlər, qurbanlarına çevrilib. Çünki ballistik raketlərin trayektoriyası böyük dövlətlər tərəfindən izlənilir və hər kəs gördü ki, erməni ordusu gecə vaxtı dinc şəhəri, müharibə zonasından uzaqlarda yerləşən şəhərin məhz yaşayış məhəlləsini məqsədyönlü şəkildə atəşə tutub. Yəni bu, təsadüfən açılan atəş deyildi, məqsədyönlü şəkildə yaşayış binasını vurmaq, Azərbaycan vətəndaşlarını öldürmək, Azərbaycan xalqının gözünü qorxutmaq, Azərbaycan rəhbərliyini torpaqların azad edilməsindən çəkindirmək məqsədi daşıyırdı. Əlbəttə, bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır. Azərbaycan Ordusu müharibə dövründə belə cinayətlərə əl atmayıb, biz müharibəni ləyaqətlə aparmışıq, biz döyüş meydanında düşmənə cavab vermişik. Gəncə və digər şəhərlər - Mingəçevir, Bərdə, Tərtər, Goranboy, Ağdam rayonu, Füzuli rayonu, Naftalan bombalananda mən deyirdim ki, biz döyüş meydanında qisasımızı alacağıq. Biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir.

Ermənistan isə döyüş meydanında məğlub olaraq, 10 min fərari verərək, tamamilə biabır olaraq, görün hansı çirkin əməllərə əl atıb bizi dayandırmaq istəyirdi. Amma Azərbaycan xalqı, hətta bu dağıntılar altından çıxan insanlar, qanın içində olan insanlar, öz yaxınlarını itirmiş insanlar da deyirdilər ki, biz ancaq qabağa getməliyik. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Biz bu günahsız insanların, şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Ermənistanı diz çökdürdük, məğlub etdik. Erməni faşizmini məğlub etdik və ədaləti bərpa etdik.

Bu gün burada təməlini qoyduğum Memorial Kompleks böyük ərazini əhatə edəcək. Bu Memorial Kompleks təqribən dörd hektarda yaradılacaq. Dağıdılmış bu binalar olduğu kimi qalacaq. Yəni bu yaddaş silinməməlidir. Bu erməni vəhşiliyini unutmamalıyıq. Müharibə başa çatıb. Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı. Onların yaxınları üçün bəlkə də bu, təsəlli ola bilər. Eyni zamanda deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizmini məğlub etdik. Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın.

*- Cənab Prezident, bildiyimiz kimi, bu günlərdə Rusiyada erməni faşist Qaregin Njde haqqında filmin yayımı dayandırıldı, aradan qaldırıldı. Bu məsələni Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasətin nəticəsi kimi dəyərləndirmək olarmı? Bu barədə də fikirlərinizi bilmək istərdik.*

- Mən hesab edirəm ki, ilk növbədə, Rusiya ictimaiyyəti bundan xəbərdar oldu və Rusiya ictimaiyyətinin təkidi nəticəsində bu biabırçı aksiya baş tutmadı. Ancaq o da həqiqətdir ki, ilk dəfə olaraq, bu məsələni siyasi müstəviyə gətirən mən olmuşam. Mən əvvəlki illərdə də dəfələrlə bu erməni faşistləri haqqında öz çıxışlarımda məsələ qaldırmışdım. Beynəlxalq təşkilatlar qarşısında, ölkələr qarşısında məsələ qaldırmışdım ki, faşistlərin qəhrəmanlaşdırılmasına imkan vermək olmaz. Cəllad Njde ilə bağlı mən MDB Zirvə görüşünün birində öz çıxışımda məsələni qaldırdım. Dedim ki, Njdeyə Ermənistanın paytaxtında - İrəvanda qoyulan abidə faşizmin təbliğatıdır. Buna son qoyulmalıdır. Bu adam faşist olub. Bu adam cəllad olub. Bu adam günahsız azərbaycanlıların və ondan sonra İkinci Dünya müharibəsi zamanı sovet ordusunun əsgərlərini, zabitlərini qətlə yetirib. Bu Njde faşistdir və bunu hər kəs bilməlidir. Ancaq Ermənistanda onun qəhrəmanlaşdırılması gedir. Əgər bu, təkcə əvvəlki faşist hakimiyyətlə bağlı olsaydı, dərd yarı idi. Ancaq əfsuslar olsun ki, indiki Ermənistan hakimiyyəti faşistləri təbliğ edir, onları müdafiə edir. Moskvada ermənilərin diaspor təşkilatının xətti ilə bu dözülməz aksiyanın keçirilməsi heç bir çərçivəyə sığmır. Çünki Rusiya özü faşizmin qəhrəmanlaşdırılmasına qarşı gedən mübarizədə ön sıralardadır, Azərbaycan kimi. Bu məsələ ilə bağlı Rusiya tərəfi ilə dəfələrlə fikir mübadiləsi olub. Prezidentlər səviyyəsində, digər vəzifəli şəxslər səviyyəsində, ictimai təşkilatlar səviyyəsində biz həmfikirik. Faşizmin baş qaldırmasına yol vermək olmaz. İkinci Dünya müharibəsinin tarixi ilə bağlı təhrifetmə cəhdlərinə son qoyulmalıdır. Bu siyasət dünyanı uçuruma aparacaq. Faşizmi qəhrəmanlaşdırmaq olmaz. Amma bir tərəfdən Ermənistan rəsmən bu fikirlərə qoşulsa da, faktiki olaraq Njde kimi faşistin qəhrəmanlaşdırılması ilə bağlı konkret addımlar atır. Bu günə qədər Ermənistanda, İrəvanda faşist Njdenin adını daşıyan küçələr, meydanlar, metro stansiyası var, ona böyük - altımetrlik abidə qoyulub. Bu abidə bu günə qədər sökülməyib.

Yəni bu, nəyi göstərir? Onu göstərir ki, erməni faşizmi yaşayır. Bəli, İkinci Qarabağ müharibəsində, Vətən müharibəsində biz erməni faşizmini məğlub etmişik. Deyə bilərəm ki, erməni faşistlər indi əvvəlki illərdəki qədər fəal deyillər. Ancaq biz görürük ki, faşizm baş qaldırır, Ermənistanda baş qaldırır. Ermənistanın keçmiş faşist rəhbərləri, uşaq qatilləri Sarkisyan, Köçəryan baş qaldırırlar və yenə də meydan sulamağa çalışırlar. Biz onları məğlub etmişik. Onlar bizim qabağımızda diz çöküblər. Onlar tarixdə fərari kimi qalacaqlar. O cümlədən erməni xalqının tarixində Serjik Sarkisyan və Robert Köçəryan fərarilər kimi qalacaqlar. Çünki Azərbaycan Ordusu Şuşaya yaxınlaşdıqca onlar Xankəndidən qorxaqcasına, dovşan kimi qaçmışdılar. Amma indi Ermənistanda baş qaldırırlar, Rusiyada baş qaldırırlar. Rusiyanın paytaxtında erməni diaspor təşkilatının xətti ilə belə biabırçı aksiyanın təşkili dediyim sözlərin sübutudur. Biz erməni faşizmini məğlub etdik, ancaq o, məhv edilməyib. Biz bundan sonra da çalışacağıq ki, erməni faşizminin bütün təzahürlərini yer üzündən silək və buna gücümüz çatır. Ancaq gərək digər ölkələr də, beynəlxalq ictimaiyyət də bu məsələdə həmrəy olsun. Erməni faşizminin XXI əsrdə törətdiyi bu dağıntılar hamı üçün gərək bir nümunə olsun ki, faşizmin yaxşısı, pisi yoxdur. Erməni havadarları, Ermənistanın arxasında dayanan dairələr də bunu bilməlidirlər, dərk etməlidirlər və bizim tarixi missiyamızı qiymətləndirməlidirlər, biz hansı bəlanı məhv etdik. Biz təkcə öz torpağımızı azad etmədik, biz regionu, Cənubi Qafqazı bu vəhşixislətli qüvvələrdən təmizlədik. Yenə də deyirəm, indi onlar artıq boynubükük şəkildə yaşayırlar. Ancaq heç kim qarantiya verə bilməz ki, yenə də baş qaldırmayacaqlar. Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir.

*- Cənab Prezident, AZƏRTAC-ın suallarını ətraflı cavablandırdığınız üçün Sizə təşəkkür edirik, minnətdarıq.*

- Sağ olun.

# Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazanıb

## "Rossiya 24" telekanalında Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş "Hakimiyyət formulu" verilişi yayımlanıb

*Əvvəli 1-ci səh.*
















**Müəllifdən:** Son onilliklərdə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb. Azərbaycan gəlir səviyyəsi ortadan yuxarı olan dövlətlər qrupuna daxil olub. Ölkədə davamlı demoqrafik artım müşahidə olunur. Neft hasilatı artır. Bu gün Azərbaycan dünyada enerji təhlükəsizliyinə nail olmaqda liderlər sırasındadır. 2017-ci il sentyabrın 14-də Bakıda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərin sulu hissəsinin birgə işlənməsi barədə yeni saziş imzalanıb. Bu layihəyə 36 milyard dollardan çox sərmayə qoyulub. 500 milyon ton neft çıxarılıb. 2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin mühüm hissəsi olan Trans-Anadolu qaz kəməri - TANAP-ın rəsmi açılışı olub. Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə, proqnozlaşdırılan ehtiyatlar təqribən 3 trilyon kubmetrə bərabərdir.

**Mixail QUSMAN:** Azərbaycan tarixən neft hasil edən ölkədir, lakin bununla bərabər siz artıq neçə illərdir deyirsiniz ki, Azərbaycan neftdən asılılıqdan xilas olmalıdır.

**Prezident İlham ƏLİYEV:** Siz tamamilə haqlısınız. Mən bu mövzunu çox fəal şəkildə qaldırmışam və qaldırıram. Bu istiqamətdə müəyyən addımlar atılır. Ona görə də qeyri-neft sektoruna istiqamətlənmə əsas prioritet olub və yenə belədir.

**Müəllifdən:** Azərbaycan əlavə regional layihələr həyata keçirir. Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri sayəsində bu ölkə Avrasiyanın əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. "Şimal-Cənub nəqliyyat dəhlizi"nin Azərbaycan hissəsi yekun mərhələyə qədəm qoyub. Bu dəhliz Hindistanı, Pakistanı, İranı, Azərbaycanı, Rusiyanı və Şimali Avropa ölkələrini birləşdirəcək.

**Prezident İlham ƏLİYEV:** Azərbaycan ərazisində bütün nəqliyyat-kommunikasiya layihələri praktiki olaraq başa çatdırılıb. Nəqliyyat-logistika infrastrukturunun yaradılması tamamlanıb. Bu gün biz daşımanı çoxaltmaq və Azərbaycanın tranzit imkanlarını artırmaq üçün tərəfdaşlarımızla, qonşularımızla işləyirik.

**Müəllifdən:** 2017-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsi təmin edilib. Mahiyyət etibarı ilə Qədim İpək yolu bərpa olunub. 2018-ci il mayın 14-də Bakının Qaradağ rayonundakı Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi təntənəli şəkildə açılıb. Bu kompleksin yükaşırma qabiliyyəti 15 milyon tondur. Bu həcm 25 milyon tona qədər artırıla bilər. Prezident İlham Əliyevin tapşırığına əsasən, Ələt qəsəbəsində yaradılan azad ticarət zonası 130 milyon nəfəri əhatə edən regional miqyaslı bazara xidmət edəcək. Azərbaycan iqtisadiyyatın müxtəlif sahələrinə böyük investisiyalar cəlb etmək üçün bank islahatı aparır.

**Prezident İlham ƏLİYEV:** İnformasiya-kommunikasiya texnologiyaları sektorunda da təməl pis deyil. Artıq üç peykə malik olan Azərbaycan kosmik klubun üzvüdür. İKT sahəsi çox fəal inkişaf edir və bu sahədə mühüm artım var. Başqa sahələrə gəldikdə isə əlbəttə, mən, ilk növbədə, kənd təsərrüfatını qeyd edərdim. Burada çox böyük potensial var, çox böyük sərmayə qoyulub və yetərincə ciddi artım var. Biz turizmə böyük diqqət yetirmişik və yenə yetiririk, müasir turizm infrastrukturu yaradılıb. Lakin, əlbəttə, pandemiya bu sektora çox güclü zərbə vurub. Hazırda biz daxili turizmin stimullaşdırılması barədə düşünürük.

**Mixail QUSMAN:** Bütün dünyanı faciəli şəkildə çənginə almış koronavirus pandemiyası, əlbəttə, Azərbaycanda da həyata təsir göstərməyə bilməzdi. Azərbaycan rəhbərliyi koronavirusun ölkəyə nüfuz etməsinə, onun inkişafına mane olmaq üçün nə mümkündürsə edib. Qeyd etmək lazımdır ki, Azərbaycanın hakimiyyət orqanlarının fəaliyyəti Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilib.

**Müəllifdən:** 2021-ci ilin yanvar ayı. Azərbaycanda vaksinasiya kampaniyasının başlanğıcı. Hər yüz nəfər üçün istifadə edilmiş vaksin dozalarının həcmi 80 faizdən çoxdur. Əhalinin və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün 2 milyard 700 milyon dollar həcmində sosial-iqtisadi paket təqdim olunub. Ümumdünya Səhiyyə Təşkilatının proqramlarına Bakının könüllü maliyyə yardımı 10 milyon dollar olub. 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərilib. Dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərilib.

**Prezident İlham ƏLİYEV:** Yeri gəlmişkən, bizim təşkil etdiyimiz, həyata keçirdiyimiz işi Ümumdünya Səhiyyə Təşkilatı da qiymətləndirib. Bu təşkilatın baş direktorunun mənə ünvanladığı məktubda Azərbaycan rəhbərliyinin fəaliyyəti yüksək qiymətləndirilib, habelə Azərbaycan nümunəvi ölkə, yəni bu bəla ilə mübarizədə nümunə göstərən ölkə adlandırılıb.

**Müəllifdən:** 2020-ci ilin may ayı. Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakıda Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin Zirvə görüşü keçirilib. Bu görüş COVID-19-a qarşı mübarizəyə həsr edilib. Qoşulmama Hərəkatı üçün yubiley ili olan 2021-ci ildə təşkilatın 120 üzvünün qərarı ilə Azərbaycanın sədrlik müddəti 2023-cü ilə qədər uzadılıb.

**Prezident İlham ƏLİYEV:** Azərbaycan yekdilliklə Hərəkatın sədri seçilib, bu da çox əlamətdar amildir. Bildiyiniz kimi, Hərəkatda 120 ölkə iştirak edir və bu ölkələrin bəziləri arasında münasibətlər, yumşaq desək, gərgindir. Lakin bizə göstərilən hörmət və etimad ona dəlalət edir ki, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazana bilib.

**Müəllifdən:** 2020-ci ilin dekabr ayı. Azərbaycan Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusa qarşı mübarizəyə həsr edilmiş xüsusi sessiyası keçirilib. İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxışında yeni təşəbbüs irəli sürüb.

**Prezident İlham ƏLİYEV:** Biz COVID-19-dan sonra ümumi bərpa üzrə BMT-nin yüksəksəviyyəli panelinin yaradılmasını təklif edirik. O, postpandemiya dövründə qlobal tədbirlər barədə tövsiyələr hazırlayacaq.

**Mixail QUSMAN:** Azərbaycan əksər beynəlxalq təşkilatların özünəinamlı və fəal iştirakçısıdır. O, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü də olub. Azərbaycan Müstəqil Dövlətlər Birliyi sistemində, ATƏT-də və digər qurumlarda fəal işləyir.

**Prezident İlham ƏLİYEV:** Azərbaycana gəldikdə, biz iştirak etdiyimiz bütün təşkilatlarda məhz həmin təşkilatı gücləndirmək, habelə bu təşkilatın fəaliyyəti çərçivəsində öz milli mənafelərimizi maksimum təmin etmək üçün iştirak edirik. Hər bir beynəlxalq təşkilat qüdrətli ölkələrdən, ortabablardan, bir də hələ bir qədər böyüməli olan ölkələrdən ibarətdir. Ona görə də burada bütün ölkələrin mənafelərinin nəzərə alınması vacibdir. Bu səbəbdən beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı hörməti mühüm prioritetlərdən biri hesab edirəm. Azərbaycan qanunun aliliyini və beynəlxalq hüququn aliliyini həmişə üstün tutur.

**Mixail QUSMAN:** Azərbaycanda ən qədim dövrlərdən ən müxtəlif dini və etnik qrupların nümayəndələri, ən müxtəlif xalqlar sülh və mehriban qonşuluq şəraitində yaşayırlar. Mən bunu başqalarından eşitdiyimə görə demirəm. Tam inamla deyə bilərəm ki, multikulturalizm azərbaycanlıların qanındadır.

**Müəllifdən:** 2018-ci il mayın 2-də Bakıda Mədəniyyətlərarası Dialoq üzrə V Ümumdünya Forumu keçirildi. BMT bu forumu mədəniyyətlərarası dialoqun təşviq edilməsi üçün mühüm qlobal platforma kimi qiymətləndirir.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, gənc nəslə müraciət edərək demək istərdim ki, onlar öz əcdadlarından nümunə götürərək fədakarlıqla, yüksək vətənpərvərlik hissi ilə yaşamağı, mübarizə aparmağı öyrənsinlər, öz Vətənini qoruyarkən canını belə əsirgəmədən qəhrəmanlıq göstərsinlər.

**Mixail QUSMAN:** 10 il bundan əvvəl Azərbaycan Prezidenti ilə söhbət zamanı biz onunla çox ağrılı bir məsələni - Dağlıq Qarabağ ətrafında vəziyyəti müzakirə edirdik.

Dəhşətli dərəcədə çətin düyünə düşmüş siyasi problemlər, əlbəttə, öz həllini tələb edir. Sizin fikrinizcə, bu düyünü əmələ gətirən sapları birbirinin ardınca dartmaqla açmaq mümkündür, yoxsa bu, Qordi düyünüdür, onu yalnız kəsmək olar?

**Prezident İlham ƏLİYEV:** Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının, digər təşkilatların qətnamələri var. Bu sənədlərin hamısında tələb eynidir - Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Bu, bizim suveren hüququmuzdur.

**Müəllifdən:** 2020-ci ilin sentyabr ayı. Dağlıq Qarabağda hərbi münaqişənin yeni mərhələsi. 44 gündən sonra, noyabrın 9-dan 10-na keçən gecə atəşkəs barədə üçtərəfli saziş Rusiyanın vasitəçiliyi, Prezident Putinin şəxsən iştirakı ilə imzalandı. Qarabağda Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi barədə qərar qəbul edildi.

**Prezident Vladimir PUTİN:** Rusiyanın həlledici töhfəsi sayəsində Dağlıq Qarabağda münaqişə dayandırılıb. Rusiya sülhməramlıları regionda sülhə və təhlükəsizliyə etibarlı təminat verirlər.

**Prezident İlham ƏLİYEV:** Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yolla nizamladı, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı.

**Müəllifdən:** Prezident Əliyevin qərarı ilə Qarabağ "yaşıl enerji" zonası elan edilib. Yaxın dörd ildə orada 240 meqavat gücündə yeni günəş elektrik stansiyası tikiləcək. 2030-cu ilədək bütün ölkədə daha 10 belə layihə həyata keçirilməsi planlaşdırılır.

2016-cı il. Azərbaycan İqlimə dair Paris Sazişini ratifikasiya edir. 2030-cu ilədək istixana effekti yaradan qazların səviyyəsini 35 faiz azaltmaq barədə könüllü öhdəlik götürür. Bu gün ölkədə ümumi enerji istehsalında bərpaolunan enerjinin payı 17 faiz təşkil edir. Ən yaxın hədəf 10 ildən sonra bu rəqəmi ikiqat artırmaqdır.

**Mixail QUSMAN:** Son illərdə Azərbaycan çoxlu sayda böyük idman, mədəni, siyasi, iqtisadi tədbirlər, müxtəlif forumlar keçirib. Siz postpandemiya dövründə dünyanı necə təsəvvür edirsiniz? Biz hamımız həmin dünyada yaşamalı olacağıq.

**Prezident İlham ƏLİYEV:** Dünya artıq başqalaşıb, biz tədricən işin yeni formatına, həyatın yeni formatına, özünütəcrid rejiminə öyrəşirik. Əlbəttə, ünsiyyət çatışmazlığını hiss edirik. Beynəlxalq forumlara gəldikdə isə, siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, artıq Azərbaycan, ilk növbədə, humanitar əməkdaşlıq üçün mühüm məkana çevrilib. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə keçirilən və təşəkkülündə sizin, Mixail Solomonoviç, şəxsən çox böyük rol oynadığınız Bakı Beynəlxalq Humanitar Forumu da, Mədəniyyətlərarası Dialoq Forumu da, keçirilməsi bu gün təxirə salınmış çoxlu başqa tədbirlər də suallar doğurur: biz onları necə keçirəcəyik? Lakin mənim fikrimcə, əsas məsələ, hər halda, o cümlədən beynəlxalq praktika məsələlərində əməkdaşlığın məzmununu, bu sahədə müsbət təcrübəni qoruyub saxlamaqdır.

**Mixail QUSMAN:** 25 il bundan əvvəl, 1997-ci ildə Rusiya və Azərbaycan Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Təhlükəsizlik haqqında Müqavilə imzalayıblar. 2008-ci ildə bu müqavilə Dostluq və Strateji Tərəfdaşlıq haqqında Bəyannamə ilə möhkəmlənib. Şübhə yoxdur ki, ölkələrimiz arasında ikitərəfli münasibətlərin əsasını hüquq bərabərliyi və mehriban qonşuluq prinsipləri təşkil edir. Əslində, bu prinsiplər Rusiya və Azərbaycan xalqları arasında əsrlər boyu yaranmış dostluq, qarşılıqlı hörmət ənənələrinin davamıdır.

Mən Rusiya Prezidenti Vladimir Putin ilə sizin münasibətlərinizə toxunmaq istərdim. Bilirəm ki, sizin aranızda yetərincə sıx yoldaşlıq münasibətləri, necə deyərlər, "personal chemistry", şəxsi münasibətlər yaranıb. Siz Rusiyaya səfərlər etmisiniz, Prezident Putin Azərbaycanda olub.

**Prezident İlham ƏLİYEV:** Sizin qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti ilə biz həm Rusiyada, həm də Azərbaycanda yetərincə tez-tez görüşürük. Buna görə bizim ünsiyyətimiz və görüşlərimiz qarşılıqlı fəaliyyətimizin inkişafına çox müsbət təkan verir, qarşılıqlı siyasi fəaliyyət də çox yüksək səviyyədədir.

**Mixail QUSMAN:** Keçən il dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev 60-cı doğum gününü qeyd etdi. Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin bu yubiley münasibətilə İlham Əliyevi səmimi təbrik etdi.

**Prezident Vladimir PUTİN:** İlk növbədə, onun ölkəsinə əmin-amanlıq, firavanlıq arzu edirəm. Ona görə ki, mən onu neçə illərdir tanıyıram. Yüksək vəzifə tutan hər hansı abırlı insan kimi onun da həyatının əsas məqsədi ondan ibarətdir ki, ölkəsi üçün yaxşı olsun, insanlar üçün, Azərbaycan xalqı üçün yaxşı olsun. Mən ona, ilk növbədə, həyati məqsədlərinin, niyyətlərinin reallaşmasında uğurlar diləyirəm. Əlbəttə, ona firavanlıq, cansağlığı arzu edirəm. Nəyi isə dolaşıq salacağımdan qorxuram, məncə, Azərbaycan folklorunda bir atalar sözü var: "Həqiqi dost yüz ildən sonra da dostdur". O bilməlidir ki, onun dostları var, o cümlədən Rusiyada da. Ümidvarıq ki, o da bizə, Rusiyaya eyni hisslər bəsləyir. Ona ən xoş arzularımı bildirirəm və yubileyi münasibətilə təbrik edirəm.

**Müəllifdən:** 2024-cü ilə qədər olan dövrdə Rusiya - Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə fəaliyyət planı 5 yol xəritəsində əks olunub. Bu xəritələr çərçivəsində ticarətdə maneələrin aradan qaldırılması; nəqliyyat infrastrukturunun inkişafı; elmtutumlu birgə istehsalatlar yaradılması; qarşılıqlı turist mübadilələrinin artırılması nəzərdə tutulur.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, humanitar sahədə əməkdaşlığı hökmən qeyd etmək lazımdır və Rusiya Prezidenti ilə biz həmişə belə edirik. Fikrimcə bu, qonşular arasında əməkdaşlığın nümunəsidir. Azərbaycanda təhsilin rus dilində olduğu 330-dan çox məktəbin, Rusiyanın aparıcı ali məktəblərinin filiallarının mövcud olması və yetərincə zəngin mədəni proqramın olması Rusiyada çox yüksək qiymətləndirilir. Biz daim əlaqə saxlayırıq, yaxın dostlar və tərəfdaşlar kimi işləyirik.

**Mixail QUSMAN:** Bu gün Azərbaycan gələcəyə istiqamətlənib. İqtisadi islahatlar uğurla inkişaf edir, kənd təsərrüfatı və sənaye yüksək səmərəlilik nümayiş etdirir. Biznes üçün gözəl şərait yaradılıb. Azərbaycan xalqı quruculuqla məşğuldur. Əlbəttə, çox iş görülüb, lakin ölkənin daha da firavanlaşması üçün Prezident Əliyev qarşıya daha yüksək məqsədlər və genişmiqyaslı vəzifələr qoyur.

**Azərbaycan vətəndaşları:** - Azərbaycan mənim Vətənim, şərəfim və ləyaqətim, vicdanımdır. Biz əsrlər boyu bu torpağı Vətən adlandırmaq hüququnu insanların həyatı bahasına qazanmışıq.

- Mənim doğmalarım və yaxınlarım, mənim işim buradadır.

- Azərbaycanın dünyada öz mövqeyi və öz səsi var.

- Azərbaycan mənim üçün hər şeydir - mənim Vətənim, torpağım, ata yurdumdur, mən burada doğulmuşam, boya-başa çatmışam və xoşbəxt yaşayıram.

- Bu diyarın çöllərindən başlamış uca dağlarına qədər sərhəd bilməyən nadir təbiəti var.

- Öz Vətəninə xidmət etmək hər bir vətəndaşın borcudur.

- Mən öz Vətənimin firavanlığı üçün hər şeyi edirəm və edəcəyəm.

- Azərbaycanın qarşısında çox vəzifələr var. Biz öz Vətənimiz uğrunda canımızdan keçməyə hazırıq.

# İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır



## İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Sercio Mattarellaya

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Azərbaycan-İtaliya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edəcək ölkələrimiz arasında dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlığımız daim inkişaf edir.

Azərbaycanın əsas ticarət tərəfdaşı olan İtaliyanın şirkətləri ölkəmizin iqtisadi həyatında fəal iştirak edir, eyni zamanda işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması işlərinə yaxından cəlb olunublar.

İnanıram ki, Azərbaycan ilə İtaliya arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə bundan sonra da uğurla davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İtaliya xalqının rifahı naminə məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2022-ci il*

# Müdafiə naziri Türkiyəyə səfər edəcək

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə fevralın 1-də Türkiyəyə işgüzar səfərə yola düşəcək.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Türkiyənin milli müdafiə naziri ilə görüşdə regional təhlükəsizlik, iki qardaş ölkənin orduları arasında qarşılıqlı əlaqənin inkişafı, eləcə də hərbi-texniki, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunacaq.

Səfər fevralın 2-dək davam edəcək.

# AHİK-in Gender Bərabərliyi və Qadın Problemləri üzrə Mərkəzinin 2021-ci ilin yekunlarına dair hesabatı mövzusunda vebinar keçirilib

Yanvarın 31-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Gender Bərabərliyi və Qadın Problemləri üzrə Mərkəzinin 2021-ci ilin yekunlarına dair hesabatı mövzusunda vebinar keçirilib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildiriblər ki, vebinarı giriş sözü ilə açan AHİK-in Gender Bərabərliyi və Qadın Problemləri üzrə Mərkəzinin sədri Cəmilə Səttarova vebinar iştirakçılarına mərkəzin 2006-2021-ci illər üzrə gördüyü işlər haqqında kitab barədə məlumat verib.

C.Səttarova sahə komitələrinin Gender Bərabərliyi üzrə komissiyaları tərəfindən 2022-ci il üçün tədbirlər planının tərtib və təsdiq olunmasını tövsiyə edib.

Vebinarda sahələrin mərkəz üzvləri 2021-ci ildə görülən işlər haqqında hesabat veriblər.

# Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Baltikyanı ölkələrə rəsmi səfər edəcək

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Latviya, Litva və Estoniya respublikalarında rəsmi səfərdə olacaq.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, rəsmi səfər fevralın 1-dən 7-dək nəzərdə tutulub.

Nümayəndə heyətinin tərkibinə Latviya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Kamran Bayramov, Litva ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nəsib Məhəməliyev, Estoniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Jalə Əhmədova, deputatlardan Rəşad Mahmudov, Elnur Allahverdiyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Səfər çərçivəsində Milli Məclisin Sədri bu ölkələrin parlament sədrləri, parlamentlərarası dostluq qrupları və digər rəsmi şəxslərlə də bir sıra görüşlər keçirəcək, qarşılıqlı əlaqələrimizin gələcək inkişaf perspektivləri barədə fikir mübadiləsi aparacaq.

# Xarici işlər nazirləri arasında telefon danışığı olub

Yanvarın 31-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı nazirlər ikitərəfli əməkdaşlıq münasibətlərini müzakirə ediblər.

Eyni zamanda regiondakı cari vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

# “Qadın, sülh və təhlükəsizlik: Postmünaqişə dövründə bərpa işlərində qadınların rolu” mövzusunda konfrans





Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və BMT-nin Azərbaycan Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Bakıda “Qadın, sülh və təhlükəsizlik: Postmünaqişə dövründə bərpa işlərində qadınların rolu” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirin moderatoru, BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev postmünaqişə dövründə bərpa işlərində qadınların rolu və BMT-nin Təhlükəsizlik Şurasının 1325 saylı Qətnaməsi barədə danışıb. Bildirib ki, regionda yaranmış yeni vəziyyətlə əlaqədar bərpa və sülh prosesinə qadınların daha çox cəlb edilməsinə ehtiyac var.

Konfransda çıxış edən Birinci vitse-prezidentin köməkçisi, səfir Elçin Əmirbəyov deyib ki, Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində öz yurdlarından zorla qovulmuş qaçqın və məcburi köçkünlərin 50 faizini qadınlar təşkil edir. Qadınlar sülh və etimadın qurulması tədbirlərinə töhfələrini verə bilərlər və Azərbaycan hökuməti buna şərait yaratmağa hazırdır. Elçin Əmirbəyov əlavə edib ki, hazırda regionda sülh, sabitlik və inkişafa yol açan yeni geosiyasi reallıq formalaşıb. Azərbaycan inanır ki, Ermənistanla dinc birgəyaşayışın alternativi yoxdur.

BMT-nin Azərbaycandakı rezident - əlaqələndiricisi Vladanka Andreyeva BMT-nin Təhlükəsizlik Şurasının 22 ildir qətnamə qəbul etməsinə baxmayaraq, qadınlarla bağlı qlobal səviyyədə ciddi irəliləyişin olmadığını deyib. O, qeyd edib ki, qadınlar nəinki danışıqlar masası arxasında əyləşməli, həm də bərpa işlərində fəal iştirak etməlidirlər. BMT bu sahədə Azərbaycan hökumətinin davamlı səylərini dəstəkləyəcək.






Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova diqqətə çatdırıb ki, mövcud vəziyyətdə yeni standartlara uyğun addımların atılması, qadınların biznes layihələrində fəal iştirakı vacibdir. Onun sözlərinə görə, Azərbaycan hökuməti bu məsələləri nəzərə alaraq, 2022-2026-cı il üçün müvafiq Milli Fəaliyyət Planı hazırlayır və komitə BMT-nin müvafiq strukturlarının tövsiyələrini nəzərə alaraq layihə üzərində işləyir.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova qadın sahibkarların azad olunmuş ərazilərlə bağlı layihələr təqdim etməsi barədə məlumat verib.

Daha sonra iki panel müzakirəsi keçirilib.

“Qadınların iştirakı” mövzusunda birinci paneldə Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyətinin sədri Şəhla İsmayıl, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov, ombudsman Aparatının informasiya əldə etmək hüququnun müdafiəsi şöbəsinin müdiri Lamiyə Zeynalova, “Qadınlar, sülh və təhlükəsizlik” gündəliyi və onun mərhələləri, eləcə də Azərbaycanda bu sahədəki vəziyyət, normativ-hüquqi çərçivə və onun icra üsulları barədə məlumat veriblər. Müzakirə zamanı mütəxəssislər BMT-nin Təhlükəsizlik Şurasının 1325 saylı Qətnaməsi və onun dörd fəsli - iştirak, qabaqlayıcı tədbirlər, qorunma, yardım və bərpa barədə danışaraq qeyd olunan sahələrdə cari vəziyyəti təqdim ediblər.

“Yardım və bərpa - yenidənqurma” mövzusunda ikinci panel müzakirələri zamanı Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp ölkəsinin təcrübəsini bölüşüb, deputat Vüqar Bayramov və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Regional layihələrlə iş və monitorinq şöbəsinin müdiri Eldəniz Əmirov azad olunmuş ərazilərdə “ağıllı kənd”lərin və “ağıllı şəhər”lərin qurulması zamanı qadınların təhlükəsizliyi, hərəkət və iqtisadi imkanları barədə danışıb, “ağıllı şəhər”lərin tikintisi prosesində qadınların rolunu müzakirə ediblər.

Panel müzakirələri BMTM-in İdarə Heyətinin üzvü Esmira Cəfərovanın moderatorluğu ilə aparılıb.

# Azərbaycanın xarici ticarət saldosu yenə də müsbətdir

## İxrac artır, idxal azalır

Azərbaycanın xarici ticarət dövriyyəsinin saldosu yenə də müsbətdir. Bunu Prezident İlham Əliyev “Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti”ndə və sonrakı çıxışlarında da qeyd edib. Xarici ticarət saldosunun müsbət olması isə heç də hər ölkənin qazana bildiyi nailiyyət deyil.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2021-ci ilin yanvar-noyabr aylarında respublikamızın hüquqi və fiziki şəxsləri 186 ölkədəki tərəfdaşları ilə ticarət əməliyyatları aparıblar. 117 ölkəyə ixrac, 173 ölkəyə isə idxal həyata keçirilib.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış xam neftin və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla yanvar-noyabr aylarında xarici ticarət dövriyyəsi 30 milyard 746,3 milyon dollar təşkil edib. O cümlədən ixracın dəyəri 20 milyard 336,4 milyon dollar, idxalın dəyəri 10 milyard 409,9 milyon dollar olub və nəticədə 9 milyard 926,5 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. 2020-ci ilin 11 ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 40,7 faiz, real ifadədə 0,8 faiz, o cümlədən ixrac 10,4 faiz artıb. İdxal isə 11,2 faiz azalıb.

Xarici ticarət dövriyyəsinin 89,6 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya, Ukrayna, İsrail, Xorvatiya, Hindistan, Gürcüstan, İspaniya, Portuqaliya, Birləşmiş Krallıq, Tunis, ABŞ, Belarus, İran, İsveçrə, Yunanıstan, Çexiya, Yaponiya, Braziliya və Kanada ilə aparılıb.




Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 17,8 faizi Rusiyanın, 15,9 faizi Türkiyənin, 14 faizi Çinin payına düşüb. Bu sırada sonrakı yerlərdə Almaniya, Ukrayna, ABŞ, İtaliya, İran, Birləşmiş Krallıq, Yaponiya, Koreya, Braziliya, Fransa, Hindistan, Belarus və digər ölkələr dayanır.

Azərbaycanın idxal etdiyi mallar, əsasən, maşınlar, mexanizmlər, elektrotexniki avadanlıq və cihazlar, kimya sənayesi məhsulları, nəqliyyat vasitələri, azqiymətli metallar və onlardan hazırlanan məmulatlar, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatları, bitki mənşəli məhsullar, plastik kütlə, toxuculuq materiallarıdır. Sözügedən dövrdə xam şəkərin, təzə meyvə və tərəvəzin, çayın, kartofun, quş ətinin idxalı artıb. İdxalı çoxalan məhsullar sırasında eləcə də minik və yük avtomobilləri, hesablama maşınları, blok və qurğuları, rezin şinlər, mebel, paltaryuyan maşınlar, məişət kondisionerləri, məişət soyuducuları olub.

Bir sıra məhsulların idxalında isə azalma müşahidə edilib. Bunlar buğda, bitki və kərə yağları, digər süd yağları və pastaları, mal əti, siqaretlər, dərman vasitələridir. İdxalı azalan eləcə də polad prokat, qara metallardan borular, çubuqlar və küncluklər, mineral gübrələr, polietilen, avtobuslar, sement və sement klinkerləridir.

11 ayda Azərbaycana 76 min 348 minik, 5 min 24 yük avtomobili, 213 avtobus idxal olunub.

Ölkəyə gətirilən malların 66,8 faizi avtomobil, 17,4 faizi dəmir yolu, 10,6 faizi hava, 5 faizi dəniz nəqliyyatı ilə nəql edilib.

İxracda isə 41,2 faiz göstərici ilə İtaliya ön yerdədir. Malların 12,8 faizi Türkiyəyə, 4,1 faizi Rusiyaya, 4 faizi İsrailə, 3,8 faizi Xorvatiyaya, hər biri 3 faiz olmaqla Hindistan, Gürcüstan və Portuqaliyaya göndərilib. Məhsul ixrac etdiyimiz əsas ölkələr həmçinin İspaniya, Almaniya, Tunis, Ukrayna, Birləşmiş Krallıq, Yunanıstan, Belarus, İsveçrə, Kanada, Çexiya, Çin, Tailand və başqalarıdır.

Karbohidrogenlərin hasilatı, elektrik enerjisinin istehsalı ilə məşğul olan ölkə kimi Azərbaycanın ixracında bu məhsullar üstünlük təşkil edir. Təsadüfi deyil ki, ixrac məhsullarının 85,2 faizi boru kəmərləri və elektrik xətləri ilə nəql olunub. Bununla yanaşı, xaricə meyvə-tərəvəz, plastik kütlə, kimya sənayesi məhsulları, pambıq lifi və ipliyi, alüminium, qara metallar, şəkər, bitki yağları, alkoqollu və alkoqolsuz içkilər də ixrac edirik. Bunların 7,7 faizini avtomobil, 5 faizini dəmir yolu, 1,4 faizini hava, 0,7 faizini dəniz nəqliyyatı ilə göndərilmiş məhsulların dəyəri təşkil edib.

Fakt və rəqəmlər göstərir ki, ötən ilin yanvar-noyabr aylarında bir sıra qeyri neft-qaz məhsullarının ixracında artım olub. Məsələn, təzə meyvə ixracı 17,6, kartof 12,9, şəkər 7,1, meyvə və tərəvəz konservləri 20,2, pambıq lifi 38,5, polietilen 29,8 faiz, pambıq ipliyi 2,3 dəfə artıb. İxracı çoxalan məhsullar sırasında meyvə və tərəvəz şirələri, təbii üzüm şərabları və üzüm suslosu, qara metallardan borular və yarımfabrikatlar, bentonit gili də var.

Təzə tərəvəz, bitki yağları, tütün, çay, marqarin, qida üçün yararlı digər qarışıqlar, emal olunmamış alüminiumun ixracı isə, əksinə, azalıb.

2020-ci ilin eyni dövrünə nisbətən qeyri neft-qaz məhsullarının ixracı faktiki qiymətlərlə 44,1 faiz, real ifadədə 33,8 faiz artıb. Bu növ məhsulların ixracının dəyərində Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan, Braziliya, ABŞ, Ukrayna və bir sıra digər ölkələrə göndərilən malların payı üstünlük təşkil edib. Bu da qeyri neft-qaz sektoru məhsullarının həm həcminin artdığını, həm də coğrafiyasının genişləndiyini göstərir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

1992 2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

30

# Xalqın arzu və istəklərini gerçəkləşdirən partiya

**Yeni Azərbaycan Partiyası xalqın və dövlətin ən çətin günlərində, taleyüklü bir dönəmdə yaradıldı. Elə bir dövrdə ki, deklorativ müstəqilliyini elan edən Azərbaycan kompassız və yelkənsiz gəmini xatırladırdı. Dövləti dağılmaqdan qurtarmaq, düzgün inkişaf yolunu müəyyənləşdirmək, xalqı səfərbərliyə alaraq mövcud təhlükələri dəf etmək təxirəsalınmaz zərurətə çevrilmişdi. Maymaq və qorxaqların, səriştəsiz və təcrübəsizlərin ölkə rəhbərliyinə gəlməsi, naşı və uzağı görməyən siyasət yeritməsi, üstəlik, xalqın etimadını itirmələri ölkəni real fəlakət həddinə çatdırmışdı.**



Bu məqamda Azərbaycan xalqı öz taleyini yalnız yaxşı tanıdığı, sevdiyi və sınaqdan çıxardığı övladına etibar edə bilərdi.

Ulu Öndər Heydər Əliyev ona müraciət edən xalqın səsinə biganə qala bilməzdi. Çünki özü də vəziyyətin mürəkkəbliyini, Azərbaycana yönələn təhdidləri, nəinki müstəqilliyimizi, hətta dövlətimizi təqib edən real təhlükələri yaxşı görürdü. Lakin Azərbaycan artıq bazar iqtisadiyyatı və demokratik inkişaf yolunu seçdiyindən hakimiyyətə qayıdış da sivil, demokratik yolla gerçəkləşdirilə bilərdi.

Bir qrup ziyalının Ulu Öndərə müraciəti bu dahi şəxsiyyət tərəfindən müsbət qarşılandı. Beləliklə, yeni bir partiyanın - yeniləşməkdə qərarlı olan Azərbaycanın siyasi həyatında mühüm rol oynayacaq partiyanın quruculuğu prosesinə başlanıldı.

Partiyanın adını və rəmzini də Ulu Öndərimiz özü seçdi.

Azərbaycan xalqı Heydər Əliyevin adı ilə bağlı olan yeni bir partiyanın yaradılmasını böyük sevgi ilə qarşıladı. O dövr müxalifətçilərinin yaratdıqları bütün maneələrə, hədələrə və əngəllərə baxmayaraq, imzatoplama mərasimi respublikanın bütün guşələrində sürətlə getdi. İnsanlar böyük həvəslə yeni partiyaya üzv olacaqlarını imzaları ilə təsdiqləyirdilər. Xalqın arzularını və ümidlərini doğuracaq yeni partiya 22 noyabr 1992-ci ildə təsis konfransını keçirərək həyat vəsiqəsi aldı.

Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən bu konfransda YAP-ın proqram və nizamnaməsi də qəbul olundu.

Bu gün Azərbaycan müstəqil, hüquqi-demokratik və oturuşmuş bir dövlətdir. Onun yeni Konstitusiyası qəbul olunmuş, demokratik təsisatları yaradılmışdır. Hakimiyyət bölgüsü aparılmış, dünya dövlətləri, beynəlxalq qurum və təşkilatlarla bərabərhüquqlu münasibətlər qurulmuşdur. Azərbaycan milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür, öz sözünü aydın və ucadan deyir. Artıq dövlətimiz yerləşdiyi regionda və dünyada böyük nüfuz sahibinə çevrilib, hətta ən ağır və mürəkkəb problemi olan Qarabağ münaqişəsini də 44 günlük Zəfər müharibəsi ilə həll edib!

Yeni Azərbaycan Partiyası yaradılanda isə bütün bunların hamısı arzu, çatılası çətin və uzaq görünən hədəflər idi. Üstəlik, YAP-ın özü belə müxalifət partiyası, iqtidara gəlmək iddiasında olan partiya sayılırdı. Proqramında isə bütün bunların hamısı əhatəli və dəqiqliklə göstərilmişdi.

Yeri gəlmişkən, bir vacib məqamı da qeyd edək. YAP müxalifət partiyası kimi fəaliyyət göstərdiyi müddətdə əsl müxalifət partiyası necə olar və nə sayaq səmərəli çalışa bilər nümunəsini də ortaya qoydu.

YAP bir dəfə də dağıdıcılıqla məşğul olmadı, milli maraqların əleyhinə getmədi, hakimiyyətə gəlmək naminə xalqın maraqlarına, dövlətin mənafeyinə qarşı çıxmadı, onun imicinə və təhlükəsizliyinə xələl gətirəcək addımlar atmadı. Açıq mübarizə apardı, demokratik prinsipləri pozmadı, qanunların tələblərinə ciddi əməl etdi.

Bu gün Cənubi Qafqazın ən böyük partiyası olan YAP-ın yüksək nüfuzunun səbəblərindən biri də müxalifətdə olanda və sonrakı dövrlərdə demokratiyanın və qanunun tələblərinə dönmədən əməl etməsi, milli maraqları daim öndə tutması, quruculuqla məşğul olması, xalqın istəklərini mərhələlərlə gerçəkləşdirməsidir.

Yeni Azərbaycan Partiyasının özəlliklərindən biri də odur ki, partiya iqtidara öncə seçkilər yolu ilə gəlmədi. Xalqın çağırışı ilə müstəqilliyimizi məhvolma, Azərbaycanı isə kiçik xanlıqlara bölünmə təhlükəsindən xilas etmək üçün Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdı. 4 ay sonra keçirilən seçkilərdə isə xalqın birmənalı mütləq dəstəyi ilə YAP sədri Ulu Öndər Heydər Əliyev Azərbaycan Prezidenti seçildi. Beləliklə, YAP da iqtidar partiyasına çevrildi. Əslində, Yeni Azərbaycan Partiyasının proqramında qoyulan bütün hədəflər və vəzifələr müstəqil Azərbaycan dövlətinin qarşısında duran və həllini gözləyən problem və vəzifələrlə tam üst-üstə düşürdü. Başqa sözlə, mahiyyətcə dövlətin və partiyanın yaxın və uzaq hədəfləri eyni idi.

Artıq həmin hədəflərin, demək olar ki, hamısı fəth olunmuşdur. Dövlət idarəçiliyində varislik, müstəqillik, qanunçuluq, vətəndaş həmrəyliyi, konstruktiv əməkdaşlıq, sosial ədalətin bərpası prinsipləri uğurla həyata keçirilmişdir. Bu gün xalqımızı birləşdirən azərbaycançılıq ideologiyası həyat tərzimizə çevrilmiş, 44 günlük Vətən müharibəsində möhtəşəm qələbəni təmin edən başlıca amillərdən biri olmuşdur.

Ötən 30 ildə Azərbaycan cəmiyyətində də çox böyük dəyişikliklər baş vermiş, Azərbaycan bütün mənalarda - həm mahiyyətcə, həm də quruculuq baxımından çoxsaylı nailiyyətlər qazanmışdır. Hakimiyyət bölgüsü aparılmış, Milli Məclisə və yerli özünüidarə orqanlarına çoxsaylı demokratik seçkilər keçirilmiş, müasir parlament ənənələri formalaşmış, ölkə başdan-başa yenidən tikilib qurulmuş, Azərbaycan öz tarixinin ən qüdrətli dövlətinə çevrilmişdir. Bütün bu nailiyyətlərdə Yeni Azərbaycan Partiyasının və onun üzvlərinin də danılmaz fəaliyyəti, zəhmət payı vardır.

Bütövlükdə, fəaliyyətə başladığı ilk günlərdən "Yeni, müstəqil Azərbaycan uğrunda" çağırışını özünə deviz seçən YAP Ulu Öndərimizin apardığı müdrik, uzaqgörən, məqsədyönlü və dəqiq hədəflərə hesablanmış siyasət nəticəsində xalqın etimadını doğrultdu, müstəqilliyimizin əbədiliyə və dönməzliyə çevrilməsinə, dövlətimizin nüfuz və qüdrətinin yüksəlməsinə sanballı töhfələr verdi.

Həyat bir yerdə dayanmır, daim inkişaf edir, yeni çağırışlar və sınaqlar meydana gəlir. Cənab İlham Əliyevin YAP-ın I qurultayında partiyanın sədr müavini, daha sonralar isə birinci müavini və sədri seçilməsi təşkilatın həyatında böyük siyasi hadisə oldu. Siyasi varislik ənənəsinə sadiq qalaraq prezidentliyi və partiyaya rəhbərliyi dövründə Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev dövlətin və partiyanın inkişafı istiqamətində möhtəşəm uğurlara imza atdı. "Müasir, qüdrətli və zəngin Azərbaycan naminə" çağırışını irəli sürməklə bərabər, onun reallaşmasına dəyərli töhfələrini də verdi. Tarixən qısa bir dövrdə Azərbaycan özünün enerji və nəqliyyat təhlükəsizliyini təmin etdi, öz imkanları hesabına nəhəng transmilli layihələr reallaşdırdı, üstəlik, Avropanın enerji təchizatında etibarlı tərəfdaşa çevrildi.

Bu gün Azərbaycan dünyada həm də müasir demokratik imici olan ölkə, logistika mərkəzi, mühüm nəqliyyat dəhlizinin keçdiyi məkan sayılır. İnkişaf, dəyişiklik və yeniləşmə bütün sferanı əhatə etmiş, insanların, dövlətin həyatında, ictimai-siyasi proseslərdə dərin iz buraxmışdır. Heç bir mübaliğəyə yol vermədən deyə bilərik ki, son 30 il ərzində Azərbaycan əsrə bərabər inkişaf yolu keçmişdir. Paytaxt Bakı yenidən, əsaslı şəkildə təzədən tikilib qurulmuş, ərazisi genişlənmiş, yeni küçə və xiyabanlar, məhəllələr salınmış, gözəl memarlıq nümunələri ilə bəzədilmişdir. Bakının gözəlliyi buraya gələn qonaqları valeh edir, barəsində ən xoş təriflər səsləndirilir. Ölkə paytaxtı həm də nüfuzlu beynəlxalq tədbirlərin, bəşəriyyətin taleyi ilə bağlı mühüm və qlobal problemlərin müzakirə olunduğu nüfuzlu tədbirlərin keçirildiyi məkan hüququnu da qazanmışdır. Paytaxtımız həm də ilk Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyununun, habelə Avropa və dünya birinciliklərinin, nüfuzlu beynəlxalq idman yarışlarının keçirildiyi ən arzuolunan məkan statusunu da qazanmışdır. Bu, təkcə zəruri idman arena və qurğularının mövcudluğu ilə deyil, həm də möhtəşəm tədbirlərin uğurlu təşkili təcrübəsi və xalqımızın qonaqpərvərliyi ilə də bağlıdır.

İndiyədək regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət tərəfindən qəbul edilən dörd dövlət proqramının qəbulu və icrası isə Azərbaycanın bütün bölgə və guşələrinin hərtərəfli inkişafını təmin etmişdir. Bu gün paytaxt Bakıdan çıxaraq respublikanın hansı regionuna üz tutsan, rahat yolların, bir-birindən yaraşıqlı fərdi və ictimai binaların, evlərin tikildiyinin, park və meydanlar salındığının, olimpiya idman komplekslərinin, "ASAN xidmət" mərkəzlərinin inşasının şahidi olarsan.

Kəndarası yolların təmiri, yenidən qurulması və təzələrinin çəkilməsi prosesi əsasən başa çatmış, qazlaşdırma isə yekunlaşmaq üzrədir. Regionlarda kənd təsərrüfatının inkişafı ilə yanaşı, sənaye müəssisələrinin açılışına, yeni iş yerlərinin yaradılmasına xüsusi diqqət yetirilir. Sahibkarlığın inkişafına dövlət tərəfindən daim dəstək verilir, emal müəssisələrinin yaradılması, fermerlərə güzəştli şərtlərlə gübrə satışı və subsidiyalar ödənilməsi təmin olunur.

Qazanılan nailiyyətlər sırasında multikultural dəyərlərin qorunması və inkişafı xüsusi yer tutur.

Azərbaycan tarixən çoxmillətli və çoxkonfessiyalı olub. Bu zənginlik və rəngarənglik dövlətin və mədəniyyətin inkişafına dəyərli töhfələr verib. Ulu Öndər Heydər Əliyevin "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" tezisi daim qüvvədədir və gündəlik həyatımızda özünü təsdiq edir. Bir-birinin dini dəyərlərinə, mədəniyyətinə qarşılıqlı hörmət, maneyə və çətinliklərin birlikdə dəf edilməsi, yad ünsürlərə və düşmənə qarşı birgə mübarizə uğur və qələbələri artıran məqamlardandır. Dünyada milli və etnik zəmində qarşıdurma baş verdiyi, ikili standartların mövcudluğu şəraitində Azərbaycan xalqının bu birliyi hamı üçün nümunəyə çevrilmişdir. Özünün qədim və tarixi multikultural dəyərləri ilə dünyaya çıxan Azərbaycan bu sahədə örnəkdir. Artıq bütün dünya bunu görür, bilir və öyrənməyə çalışır.

Azərbaycan xalqının son illərdə qürur duyduğu məqamlardan biri də milli birliyin təmini və taleyüklü məsələlərin həllində bu birliyin mühüm amillərdən birinə çevrilməsidir.

Ötən otuz ildə ölkəmizdə mətbuat və söz azadlığı, insan haqlarının qorunması təmin olunmuş, çoxpartiyalı sistemə keçid baş vermiş, fikir plüralizmi bərpa edilmişdir. Azərbaycanda qəzet təsis etmək, sayt açmaq, partiya yaratmaq yolunda bütün bürokratik əngəllər aradan qaldırılmışdır. İnsanlar öz fikirlərini sərbəst ifadə edir, mövqe və mülahizələrini çəkinmədən bildirirlər. İnternet istifadəçilərinin sayının ölkə əhalisinin 90 faizi civarında olması, sosial şəbəkələrdə istənilən fikrin maneəsiz söylənməsi, hətta bəzən ölkə vətəndaşlarının məsuliyyətsiz söz azadlığından əziyyət çəkməsi belə günümüzün yeni reallıqlarındandır. Lakin Azərbaycanın hazırkı iqtidarı bu sahədə heç zaman heç bir məhdudiyyət tətbiq etmir və etməyəcəkdir. Yeganə istək hamının demokratik prinsiplərlə yanaşı, qanunun aliliyinə də hörmətlə yanaşmasıdır.

Şübhəsiz, ötən 30 ilin ən böyük uğur və nailiyyəti iki əsrdir davam edən Qarabağ münaqişəsinin qələbə ilə həlli, alçaq ermənilərin doğma torpaqlarımızdan qovularaq ərazi bütövlüyümüzün bərpasıdır!

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin möcüzə təsiri bağışlayan qələbəsi bütün dünyada şok effekti doğurdu, Azərbaycan xalqına mübariz, döyüşkən, qəhrəman xalq kimi sonsuz hörmət qazandırdı.

Əslində, Qarabağ uğrunda Vətən müharibəsindəki möhtəşəm qələbə Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə 30 ildə Azərbaycan dövlətinin və cəmiyyətinin keçdiyi yolun, bütün sahələrdə qazandığı nailiyyətlərin yekunu, həm də qiymətləndirilməsi sayıla bilər!

Bu qələbə göstərdi ki, Heydər Əliyev yolu yeganə doğru yoldur ki, ölkənin milli maraqlarını qorumağı və təminini, sürətli və davamlı inkişafını, ən çətin və mürəkkəb problemlərin uğurlu həllini təmin edə bilir.

Bu qələbə göstərdi ki, müstəqil Azərbaycan düzgün istiqamət tutaraq vaxtında zəruri islahatların aparılmasını, xalqın sosial rifahının durmadan yaxşılaşdırılmasını və vətəndaş məmnunluğunu təmin etməklə qısa müddətdə möcüzələr belə yaratmağa qadirdir!

Bu qələbə göstərdi ki, YAP-ın rəhbərliyi və fəaliyyəti, azərbaycançılıq ideologiyasının real həyatda yer tutması, gənc nəslin təlim-tərbiyəsinin düzgün qurulması və ölkə daxilindəki bütün sağlam qüvvələrin bir istiqamətə yönəldilməsi sayəsində yeni vətənpərvər gənclər nəsli yetişdirmək, mətin və güclü ordu qurmaqla ən mənfur düşməni belə qısa zamanda məhv etmək mümkündür!

Bu qələbə göstərdi ki, xalqın sevdiyi və güvəndiyi rəhbər, ölkə vətəndaşlarının arzu, istək və maraqlarının ifadəçisi olan partiya öz qarşısına ən çətin və mürəkkəb vəzifələri qoyduqda belə cəmiyyətin böyük əksəriyyətini təşkil edən sağlam qüvvələri birləşdirməyə və dəqiq hədəflərə çatmağa nail olur.

Öz proqramında "Yeni, müstəqil Azərbaycan uğrunda!" çağırışını irəli sürən Yeni Azərbaycan Partiyası xalqın birliyi və doğru inkişaf yolu hesabına tarixən qısa müddətdə bütün məqsədlərinə nail oldu! Həm müasir, hüquqi-demokratik dövlət quruldu, həm də Azərbaycan xalqının seçdiyi və arzuladığı cəmiyyət formalaşdırıldı.

Həyat yerində durmur, daim inkişaf edir, yenilənir! Bu yeniləşmə öz sıralarında 800 min nəfərə yaxın üzvü birləşdirən, daim inkişafa, yeniliyə və mütərəqqi dəyişikliklərə can atan partiyadan da yan keçə bilməz! YAP-ın uğurlarını təmin edən ən mühüm məqamlardan biri də məhz budur ki, o, daim hər yeniliyə açıqdır, qlobal çağırışlara cavab verməyə, hadisələri qabaqlamağa hazır və qadirdir!

Bütün bunlar nəzərə alınmaqla partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə yeni proqram işlənib hazırlanmış və təsdiq edilmişdir.

Budəfəki deviz isə partiyamızın möhtərəm sədri cənab İlham Əliyev tərəfindən Vətən müharibəsi dövründə irəli sürülən, xalqın milli və monolit birliyinə səbəb olan "Biz birlikdə güclüyük!" devizidir!

Bəli, Yeni Azərbaycan Partiyası öz gücünü xalqdan alır, öz hədəflərinə xalqın birliyi və dəstəyi sayəsində nail olur!

Yeni proqramda əvvəlki dövrdə qələbəyə gətirən ideya-siyasi, nəzəri təcrübənin, habelə nailiyyətlərə çatdıran üsul və vasitələrin, sınaqdan çıxmış metodların davam etdirilməsi nəzərdə tutulur. Başqa sözlə, ideya-siyasi varislik prinsipinə əsaslanmaqla partiyanın əvvəlki proqramında əksini tapmış və müasir dövrün tələblərinə cavab verən ideoloji vasitələr də qorunub saxlanılır.

Partiyanın yeni proqramı beş fəsildən ibarətdir. "Partiyanın inkişafı və uğurları" adlanan birinci fəsildə YAP-ın inkişaf yoluna nəzər salınır. Konkret faktlar və misallar əsasında, yığcam şəkildə YAP-ın qət etdiyi uğurlu yoldakı ürəkaçan nailiyyətlər sadalanır. Eyni zamanda yeni proqramın prizmasından gələcəyə də baxılır: "YAP-ın VII qurultayı (5 mart 2021-ci il) Azərbaycanın davamlı inkişafı və müasir dövrün çağırışları kontekstində partiyanın qarşısına yeni vəzifələr qoyur. Cəmiyyətin və dövlətin müxtəlif sahələrini əhatə edən islahatların aparılmasında, yeni siyasi konfiqurasiyanın yaradılmasında və siyasi dialoqun dərinləşməsində yaxından iştirak etmək partiya üzvlərindən yüksək fəallıq tələb edir. VII qurultayda bir daha aydın oldu ki, YAP Azərbaycanın hərtərəfli inkişafına töhfə verən böyük sosial bazaya, güclü siyasi-intellektual potensiala malikdir. Bu isə partiyanın məqsəd və vəzifələrini gələcəkdə də şərəflə yerinə yetirəcəyini şərtləndirir".

"Siyasi dəyərlər və prinsiplər" adlanan ikinci fəsildə Heydər Əliyev yolunun mahiyyəti və xüsusiyyətləri yığcam və əsaslı şəkildə təhlil olunur. Burada "Heydər Əliyev yolu" nədir sualına da tam cavab tapa bilərik.

"Heydər Əliyev yolu:

- milli maraqların üstünlüyü;
- güclü, müstəqil, hüquqi, demokratik dövlət;
- inkişaf edən şaxələndirilmiş iqtisadiyyat;
- idarəçilikdə və milli ideologiyada varislik;
- azad insan, azad cəmiyyət, xalq-hakimiyyət vəhdəti, inkişaf etmiş vətəndaş cəmiyyəti, söz və mətbuat azadlığı, siyasi plüralizm, multikulturalizm, tolerantlıq kimi dəyərlər üzərində qurulub".

Bu yolun əsas üstünlüklərindən biri də budur ki, milli çağırışların qlobal çağırışlarla uzlaşdırılmasını təmin edir.

Üçüncü fəsildə "Partiyadaxili münasibətlərin və partiyanın əsasları"ndan danışılır, peşəkarlıq, işgüzar münasibətlər, sağlam rəqabət, innovativ inkişaf və kreativlik, elmlik, müasirlik prinsipləri və digərləri önə çəkilir. Bu tələblərin hər birinin vacibliyi göstərilir, əhəmiyyəti vurğulanır: "Yaradıcı təfəkkür, kreativ düşüncə, təşəbbüskarlıq və innovativ inkişaf müasir dünyada peşəkar fəaliyyət meyarıdır. Səmərəlilik, rasionallıq, çeviklik, müasirlik və aktuallıqla səciyyələnən kreativ yanaşma siyasi münasibətlərə də sirayət edir.

Özündə siyasi baxışları əks etdirən konseptual sənədlərin hazırlanmasında, siyasi müzakirələrin və təbliğat xarakterli tədbirlərin təşkilində kreativ yanaşma xüsusi yer tutur.

Müasir dövrdə rəqəmsal texnologiyaların müxtəlif sahələrdə, o cümlədən siyasətdə tətbiqi artacaqdır. Dünyada sürətlə gedən rəqəmsal transformasiya prosesləri və inkişaf edən "rəqəmsal cəmiyyət" formasiyası konkret sahələr üzrə tədricən yeni fəaliyyət qaydaları yaradacaqdır".

"Partiyanın əsas hədəfləri" fəsli öz əhatəliyinə və genişliyinə görə diqqəti cəlb edir. Bu fəsildə "Heydər Əliyev irsinin təbliği və təşviqi", "Güclü iqtisadiyyat və davamlı inkişaf", "İnklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı", "Vətəndaş cəmiyyətinin inkişafı", "Ordu quruculuğu", "İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdış" və digər vacib bölmələr vardır.

Yeni Azərbaycan partiyasını digər partiyalardan fərqləndirən əsas xüsusiyyətlərdən biri də odur ki, partiya yaxın və perspektiv müddətdə dövlətin qarşısında duran hədəflərə çatılmasını özünün prioriteti hesab edir, bütün imkanlarını səfərbərliyə alaraq qüvvələri problemlərin daha tez və səmərəli, uğurlu həllinə yönəldir. Başqa sözlə, partiya resurslarını dövləti vəzifələrinin yerinə yetirilməsinə müvəffəqiyyətlə tətbiq etməyi bacarır.

Hazırkı mərhələdə əsas məqamlardan biri Vətən müharibəsindən qələbə ilə çıxmış dövlətin Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına qayıdışını təmin etməsidir.

Şübhəsiz, YAP bu prosesdən kənarda qala bilməz. Odur ki, yeni proqramda iqtidar partiyasının bu sahədə qarşıya qoyduğu vəzifələr də əksini tapıb:

" ■ layiqli yaşayışın bərpası üçün işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq işlərinin aparılması;
- bu ərazilərin ölkənin ən abad guşələrindən birinə çevrilməsi;
- bu ərazilərdə dayanıqlı məskunlaşmanın təmin edilməsi;
- regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması;
- regionun sürətli iqtisadi inkişafının təmin olunması üçün stimullaşdırıcı tədbirlərin görülməsi;
- "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının hazırlanması və həyata keçirilməsi".

Beşinci fəsil lakonikliyi ilə diqqəti cəlb edir.

"Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" adlanan bu fəsildə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 44 günlük Vətən müharibəsində qazandığı zəfərdə onun güclü liderlik keyfiyyətlərinin, yüksək intellekti və diplomatik məharətinin, qətiyyət və prinsipiallığının, xarici siyasətdə qazandığı nailiyyətlərin mühüm rol oynaması xüsusi vurğulanır. Xalqımız üçün bu ağır sınaq dövründə xalq-dövlət birliyinin, milli həmrəyliyin mövcudluğu və möhkəmliyi şanlı qələbəni təmin edən mühüm amillərdən biri olduğu göstərilir.

YAP-ın ümumxalq partiyası olması onu gələcəkdə də aparıcı siyasi qüvvə kimi gücləndirən meyardır, partiyada tanınmış ziyalılar, elm, mədəniyyət, incəsənət xadimləri, gənclər və qadınlar, cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələrinin geniş şəkildə təmsil olunması xalqımızın Heydər Əliyevin yaratdığı partiyaya böyük etimadının ifadəsidir.

Dünya sürətlə dəyişir, qloballaşma prosesi yeni çağırışlara meydan açır. Bu inkişaf və yenilənmə dövründə İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan daim öz maraqlarını qorumağı, xalqın sosial rifahını yüksəltməyi, müstəqil dövlətimizi tərəqqi yolu ilə uğurla aparmağı bacarır. Azərbaycan xalqı əmindir ki, xalq-iqtidar birliyi, Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi sayəsində yeni hədəflər də fəth olunacaq, daim yenilənən Yeni Azərbaycan Partiyası yeni proqramında qarşıya qoyduğu vəzifələri şərəflə yerinə yetirəcəkdir!

**Bəxtiyar SADIQOV**

# Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800, № 12, maddə 1906; 2020, № 7, maddə 832, № 12 (I kitab), maddə 1424; 2021, № 4, maddə 308, № 6 (I kitab), maddə 541, № 7, maddə 711, № 8, maddə 894) aşağıdakı dəyişikliklər edilsin:

1. 65.5-ci, 118.20-ci və 131.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"65.5. Valideynlik hüquqlarından məhrumetmə barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.";

"118.20. Uşağın övladlığa götürülməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.";

"131.4. Övladlığa götürmənin ləğv olunması barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

2. 159-cu maddə üzrə:

2.1. 159.1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanları" sözləri ", o cümlədən doğumun, atalığın müəyyən edilməsinin və ölümün elektron qaydada qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

2.2. 159.2-ci maddədə "orqanları öz səlahiyyətləri daxilində" sözləri "orqanının müəyyən etdiyi orqan (qurum) fəaliyyət istiqamətinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi vasitəsilə" sözləri ilə, "aktlarının qeydiyyatını dəyişir, tamamlayır, düzəldir" sözləri "akt qeydlərində dəyişiklik edir" sözləri ilə əvəz edilsin, həmin maddəyə "şəhadətnamələr" sözündən sonra "və ya arayışlar" sözləri əlavə edilsin.

3. 161-ci maddə üzrə:

3.1. adında "aktları qeydlərinə etiraz etmə qaydası" sözləri "akt qeydində dəyişiklik edilməsi" sözləri ilə əvəz edilsin;

3.2. 161.1-ci maddədə "aktlarının qeydindəki səhvlərin düzəldilməsi və ona dəyişikliklər" sözləri "akt qeydində ərizə əsasında dəyişiklik edilməsi" sözləri ilə və "şəxslərin daimi yaşayış yerində" sözləri "şəxsin seçdiyi, məhkəmə qətnaməsi əsasında isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə" sözləri ilə əvəz edilsin;

3.3. 161.2-ci maddədə "orqanının qeydiyyatı düzəltməkdən və ya dəyişdirməkdən imtina etməsindən" sözləri "orqanının müəyyən etdiyi orqanın (qurumun) akt qeydində dəyişiklik etməkdən imtinasından" sözləri ilə əvəz edilsin;

3.4. 161.3-cü maddədə "qeydiyyatda düzəliş" sözləri "akt qeydində dəyişiklik" sözləri ilə əvəz edilsin;

3.5. aşağıdakı məzmunda 161.4-cü maddə əlavə edilsin:

"161.4. Vətəndaşlıq vəziyyəti akt qeydində dəyişiklik edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

4. 162-ci maddə üzrə:

4.1. adında "aktları qeydlərinin" sözləri "akt qeydinin" sözləri ilə əvəz edilsin;

4.2. 162.1-ci maddədə "aktları" sözü "akt" sözü ilə, "yaşadıqları ərazidə" sözləri "seçdiyi yer üzrə" sözləri ilə və "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.3. 162.2-ci maddədə "İtmiş yazının" sözləri "İtmiş akt qeydinin" sözləri ilə, "orqanları" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.4. aşağıdakı məzmunda 162.3-cü maddə əlavə edilsin:

"162.3. Vətəndaşlıq vəziyyəti akt qeydlərinin bərpa edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

5. 163-cü maddə üzrə:

5.1. 163.1-ci və 163.2-ci maddələrdə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

5.2. aşağıdakı məzmunda 163.3-cü maddə əlavə edilsin:

"163.3. Vətəndaşlıq vəziyyəti akt qeydlərinin ləğv edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

6. 164.3-cü maddəyə "aktlarının" sözündən sonra "qeydiyyatının elektron qaydada həyata keçirildiyi hallar istisna edilməklə," sözləri əlavə edilsin.

7. Aşağıdakı məzmunda 164.3-1 və 164.3-2-ci maddələr əlavə edilsin:

"164.3-1. Qeydiyyatı elektron qaydada aparılan vətəndaşlıq vəziyyəti aktlarının akt qeydi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vəzifəli şəxsinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilir.

164.3-2. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını aparan vəzifəli şəxs müvafiq qeydin həmin qeyd üzrə razılığı tələb olunan digər şəxslərlə razılaşdırılmasının yoxlanılmasını təmin edir. Nikahda olan valideynlərdən doğulmuş uşağın doğumunun qeydə alınması üçün valideynlərdən biri müraciət edərsə, bu halda güman edilir ki, o, digərinin razılığı ilə hərəkət edir. Müraciət edən şəxs tərəfindən yalan məlumat təqdim edilməsi gələcəkdə həmin akt qeydinin ləğvi üçün əsasdır.".

8. 166-cı maddə üzrə:

8.1. 166.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"166.1. Doğum bu barədə məlumat verən şəxsin seçdiyi, doğum faktı məhkəmə qaydasında müəyyən edildikdə isə məhkəmə qətnaməsinin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.";

8.2. 166.2-ci maddədən "müvafiq icra hakimiyyəti orqanına" sözləri çıxarılsın;

8.3. aşağıdakı məzmunda 166.2-1-ci maddə əlavə edilsin:

"166.2-1. Doğum faktının müəyyən edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

9. 186-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 186. Atalığın müəyyən edilməsinin dövlət qeydiyyatına alındığı yer**

Ərizə əsasında atalığın müəyyən edilməsi valideynlərin seçdiyi, atalıq məhkəmə tərəfindən müəyyən edildikdə isə məhkəmə qətnaməsinin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.".

10. Aşağıdakı məzmunda 187.1-1-ci maddə əlavə edilsin:

"187.1-1. Atalığın müəyyən edilməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

11. 193 - 195-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 193. Ölümün dövlət qeydiyyatına alındığı yer**

Ölüm bu barədə məlumat verən şəxsin seçdiyi, ölüm faktı məhkəmə tərəfindən müəyyən edildikdə və ya şəxs ölmüş elan edildikdə isə məhkəmə qətnaməsinin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.

**Maddə 194. Ölüm haqqında məlumat vermə**

194.1. Ölüm haqqında məlumat tibb müəssisəsi tərəfindən dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən isə həmin gün informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.

194.2. Ölüm faktının müəyyən olunması və ya şəxsin ölmüş elan edilməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.

194.3. Ölüm haqqında məlumatın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dərhal ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə tibb müəssisəsi, həmin məlumatın informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri qanunla müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 195. Ölümün dövlət qeydiyyatına alınması qaydası**

195.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Azərbaycan Respublikasının ərazisində ölmüş şəxsin ölümünü informasiya sisteminə ötürülmüş məlumat əsasında həmin məlumatın ötürüldüyü iş günü ərzində dövlət qeydiyyatına alır.

195.2. Azərbaycan Respublikası vətəndaşının, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin və ya əcnəbinin xarici ölkədə öldüyü və ölüm həmin ölkənin səlahiyyətli orqanlarında və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) qeydə alınmadığı hallarda ölümün qeydiyyatı bu ölkədə verilmiş ölüm faktını təsdiq edən tibbi sənəd əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 234; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 687; 2004, № 7, maddə 505; 2006, № 3, maddə 223; 2010, № 11, maddə 936; 2013, № 5, maddə 464; 2014, № 11, maddə 1334; 2015, № 10, maddə 1083; 2018, № 6, maddə 1189; 2019, № 3, maddə 386, № 5, maddə 794, № 8, maddə 1360, № 11, maddə 1681) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nin 41-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. birinci hissədə "Respublikası qanunvericiliyinə əsasən" sözləri "Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq" sözləri ilə, "aktlarını qeydə alır" sözləri "aktlarının dövlət qeydiyyatını, o cümlədən doğumun, atalığın müəyyən edilməsinin və ölümün elektron qaydada dövlət qeydiyyatını həyata keçirir" sözləri ilə əvəz edilsin.

2. ikinci hissədə "aktlarının qeydlərində dəyişikliklər, düzəlişlər və əlavələr" sözləri "akt qeydində dəyişikliklər" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2006-cı il 18 aprel tarixli 391 nömrəli, "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2007-ci il 26 fevral tarixli 532 nömrəli və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323, № 12, maddə 1034; 2007, № 11, maddə 1105, № 12, maddə 1246; 2009, № 7, maddə 533, № 8, maddə 627, № 10, maddə 773, № 12, maddələr 983, 988; 2010, № 2, maddə 83, № 4, maddə 292, № 11, maddə 966; 2011, № 1, maddə 18, № 2, maddə 85, № 4, maddə 281, № 6, maddə 497, № 10, maddə 894, № 11, maddə 993; 2012, № 10, maddə 950; 2014, № 6, maddə 627, № 7, maddə 820, № 9, maddə 1029; 2016, № 1, maddə 77; 2017, № 2, maddə 184, № 10, maddə 1784; 2018, № 6, maddə 1205, № 7 (I kitab), maddə 1480; 2019, № 3, maddə 431, № 5, maddə 860, № 6, maddə 1044, № 12, maddə 1927; 2020, № 7, maddə 882; 2021, № 5, maddə 439) 9.9-cu bəndinə "qeydiyyatının" sözündən sonra ", o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq elektron qaydada" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 98; 2009, № 2, maddə 59; 2010, № 11, maddə 968; 2012, № 11, maddə 1107; 2013, № 10, maddə 1153; 2014, № 9, maddə 1058; 2015, № 6, maddə 701; 2016, № 2 (II kitab), maddə 272; 2018, № 5, maddə 925, № 8, maddə 1687) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin 14.13-cü bəndinə "qeydiyyatını" sözündən sonra "(o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq elektron qaydada)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039; 2020, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, № 11, maddə 1211; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 dekabr tarixli 1502 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 5.2-ci bəndinə "qeydiyyatını" sözündən sonra "(o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq elektron qaydada)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2022-ci il*

# "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 464-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 464-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 65.5, 118.20, 131.4, 159.1, 159.2 (birinci halda), 161.2, 161.4, 162.1 - 162.3, 163.1 - 163.3, 164.3-1, 166.1, 166.2-1, 186, 187.1-1, 193, 194.1 (hər üç halda), 194.2, 194.3 (birinci və ikinci hallarda), 195.1 və 195.2-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 159.2-ci (ikinci halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

1.3. həmin Məcəllənin 194.3-cü (üçüncü halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

1.4. həmin Məcəllənin 65.5, 161.4, 162.3, 163.3, 166.2-1, 187.1-1, 194.1 (üçüncü halda), 194.2 və 194.3-cü (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 118.20-ci və 131.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 159.1, 164.3-1, 166.1, 193 və 195.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 159.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə nikahın bağlanmasının, doğumun və ölümün qeydiyyatı üzrə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri nəzərdə tutulur;

1.8. həmin Məcəllənin 161.2, 163.1, 163.2 və 195.2-ci (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri nəzərdə tutulur;

1.9. həmin Məcəllənin 162.1, 162.2 və 186-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri nəzərdə tutulur;

1.10. həmin Məcəllənin 194.1-ci (birinci və ikinci hallarda) və 194.3-cü (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

1.11. həmin Məcəllənin 195.2-ci (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri nəzərdə tutulur.

2. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, maddə 164, 2002, № 7, maddə 412, № 8, maddə 478, № 12, maddə 716; 2003, № 6, maddə 290; 2004, № 7, maddə 526; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 226, № 11, maddə 1105; 2010, № 5, maddə 393, № 7, maddə 613, № 8, maddə 722; 2019, № 5, maddə 818, № 12, maddə 1930; 2021, № 6 (I kitab), maddə 565) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 51.7, 65.5, 115.4-cü (birinci halda), 115.7-ci, 118.20, 131.4, 159.1, 159.2 (birinci halda), 161.2, 161.4, 162.1 - 162.3, 163.1 - 163.3, 164.3-1, 166.1, 166.2-1, 166.3 (hər üç halda), 166.4 (hər üç halda), 186, 187.1-1, 193, 194.1 (hər üç halda), 194.2, 194.3 (birinci və ikinci hallarda), 195.1 və 195.2-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

2.2. 2.3-cü bəndə "156.2-ci" sözlərindən sonra ", 159.2-ci (ikinci halda)" sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. həmin Məcəllənin 65.5, 161.4, 162.3, 163.3, 166.2-1, 187.1-1, 194.1 (üçüncü halda), 194.2 və 194.3-cü (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;";

2.4. 2.4-cü bənddən "65.5,", "159.1, 159.2,", "161.2,", "162.1,", "162.2,", "163.1,", "163.2," rəqəmləri və "rayon (şəhər)" sözləri çıxarılsın;

2.5. aşağıdakı məzmunda 2.4-1 ? 2.4-4-cü bəndlər əlavə edilsin:

"2.4-1. həmin Məcəllənin 161.2, 163.1, 163.2 və 195.2-ci (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri nəzərdə tutulur;

2.4-2. həmin Məcəllənin 162.1, 162.2-ci və 186-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri nəzərdə tutulur;

2.4-3. həmin Məcəllənin 159.1, 164.3-1, 166.1, 193 və 195.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə nikahın bağlanmasının, doğumun və ölümün qeydiyyatı üzrə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri nəzərdə tutulur;

2.4-4. həmin Məcəllənin 159.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə nikahın bağlanmasının, doğumun və ölümün qeydiyyatı üzrə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri nəzərdə tutulur;";

2.6. 2.5-ci bənddən "159.1," rəqəmləri çıxarılsın;

2.7. 2.6-cı bənddə "158.2, 159.2 və 166.2-ci maddələrində" sözləri "158.2-ci maddəsində" sözləri ilə əvəz edilsin;

2.8. 2.7-ci və 2.16-cı bəndlərdən "rayon (şəhər)" sözləri çıxarılsın;

2.9. 2.10-cu bənd ləğv edilsin;

2.10. 2.12-ci bənddə "nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini" sözləri "orqan (qurum)" dedikdə" sözləri ilə, "həyata keçirirlər" sözləri "nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

2.11. aşağıdakı məzmunda 2.12-1-ci və 2.12-2-ci bəndlər əlavə edilsin:

"2.12-1. həmin Məcəllənin 194.3-cü (üçüncü halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

2.12-2. həmin Məcəllənin 194.1-ci (birinci və ikinci hallarda) və 194.3-cü (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;";

2.12. 2.16-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.17-ci bənd əlavə edilsin:

"2.17. həmin Məcəllənin 195.2-ci (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri nəzərdə tutulur."

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 464-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2022-ci il*



# Müasir və yüksək döyüş imkanlarına malik olan hərbi güc

## Əlahiddə Ümumqoşun Ordu respublikamızda həyata keçirilən hərbi quruculuğun ən mükəmməl nümunələrindən biridir

*Bu ordu hələ 2018-ci ildə Günnüt kəndini və minlərlə hektar torpağı işğaldan azad edərək Ermənistanın böyük bir ərazisinə vizual nəzarəti təmin edib, Aprel döyüşlərindən sonra Azərbaycanın hərb tarixinin növbəti şərəfli səhifəsini yazıb...*

Bu ordunun şəxsi heyəti Vətən müharibəsində qəhrəmancasına iştirak edərək Hadrut qəsəbəsi və ətraf yüksəkliklərin, Füzuli, Xocavənd və digər rayonların işğaldan azad edilməsində böyük rəşadət göstərib, Şuşa şəhərinə qədər döyüş yolu keçib...

Yüksək və ən müasir döyüş imkanlarına malik olan bu ordu indi də hərbi imkanlarını artırır, torpaqlarımızın müdafiəsini etibarlı şəkildə təmin edir...

Əlahiddə Ümumqoşun Ordudan danışırıq... Qədim yurd yerimiz Naxçıvan Muxtar Respublikasına səfərimiz zamanı Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə gedərək döyüş hazırlığı, Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan ixtisas hazırlığı kurslarının fəaliyyəti, gənc əsgərlərin xidməti üçün yaradılmış şərait və Döyüş Şöhrəti Muzeyi ilə tanış olduq.

### Heydər Əliyevin yaratdığı ordu

Naxçıvanda Azərbaycan Ordusunun hərbi hissələrinin yaradılmasına ötən əsrin 90-cı illərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə başlanılıb. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra - 1991-ci il sentyabrın 7-də Müdafiə Komitəsi yaradıldı. Həmin dövrdə Heydər Əliyevin muxtar respublikada ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər Azərbaycanda Milli Ordu quruculuğu prosesinin başlanğıcı oldu.

1992-ci ilin iyul-avqust aylarında Naxçıvan ərazisində yerləşən Rusiya Silahlı Qüvvələrinin 75-ci motoatıcı diviziyasının silah və texnikası, yaşayış binaları Müdafiə Komitəsinə təhvil verilib. Həmin ilin 15 sentyabrında isə Müdafiə Komitəsinin bazasında 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada yaradılıb. 1992-ci il oktyabrın 9-da Naxçıvanda ilk dəfə hərbi parad keçirilib.

1995-ci il mayın 21-də həmin briqada motoatıcı diviziyaya, 1998-ci il dekabrın 8-də Ordu Korpusuna çevrilib. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin daha da artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə Prezident, Ali Baş Komandan İlham Əliyevin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb.





### Naxçıvanın xüsusi təyinatlıları Vətən müharibəsində şanlı tarix yazdılar

"N" saylı hərbi hissədə öyrəndik ki, respublikamızda həyata keçirilən ordu quruculuğunun, qoşunların döyüş imkanlarının artırılması tədbirlərinin tərkib hissəsi kimi Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinin də maddi-texniki təminatı möhkəmləndirilib, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılıb.Təsadüfi deyil ki, Əlahiddə Ümumqoşun Ordu bu gün yerləşdiyi coğrafi mövqeyə, kontingentinə və döyüş qabiliyyətinə görə indiki MDB ölkələrinin silahlı qüvvələri səviyyəsində analoqu olmayan statusa malikdir. Yüksək döyüş qabiliyyətinə malik olan bu ordu muxtar respublikanın etibarlı müdafiəsini tam təmin edir.

2018-ci ildə hərb tariximizə qızıl hərflərlə yazılan uğurlu "Günnüt" əməliyyatı isə Əlahiddə Ümumqoşun Ordunun yüksək döyüş hazırlığını, şəxsi heyətinin rəşadət əzmini bir daha bütün dünyaya nümayiş etdirdi. Belə ki, 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli hədlər ələ keçirildi. "Günnüt" əməliyyatı zamanı Əlahiddə Ümumqoşun Ordu Vəlidağ, Kömürlüdağ istiqamətində Axsal dağı, Qızılqaya dağı, Yağargərdik dağı, Bağırsaq dağı və Həsənqulubağ sahəsində dövlət sərhədi boyunca əlverişli mövqeləri tutdu. Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə ordumuza Ermənistandakı avtomobil yoluna nəzarət etməyə imkan verməsidir.

Vətən müharibəsi günlərində Naxçıvandan göndərilən hərbi kontinget əsl qəhrəmanlıq nümunəsi yaratdı. Müzəffər ordumuzun qələbəsi ilə nəticələnən Vətən müharibəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları, o cümlədən Heydər Əliyev adına Hərbi Liseyin məzunları və Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan ixtisas hazırlığı kurslarının yetirmələri böyük şücaətlər göstərərək tarix yazdılar.

Vətən müharibəsi günlərində şəhid olan hərbçilərimizi qarşılamaq üçün bütün Naxçıvan əhalisi yollara çıxmışdı. Həmin təsirli və eyni zamanda qürurdoğuran mənzərə bir daha göstərmişdi ki, bu xalqı məğlub etmək olmaz. O cümlədən Vətən müharibəsində döyüş tapşırıqlarını uğurla yerinə yetirən hərbi qulluqçular da Naxçıvanda böyük təntənə ilə qarşılanmışlar. Şərəfli döyüş yolu keçən qəhrəman Vətən oğullarını minlərlə insan izdihamlı şəkildə müşayiət etmiş, yolboyu üçrəngli bayrağımız dalğalandırılmışdı.

Döyüşlərdə qəhrəmanlıq göstərən Əlahiddə Ümumqoşun Ordunun zabitləri, gizirləri, əsgərləri Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunublar, bir neçəsi isə Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.





Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularından yaralanan və şəhidlik zirvəsinə ucalanlar da olub. Naxçıvan Ali Məclisinin rəhbərliyi hərbi qulluqçuların, müharibə veteranlarının və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı məsələləri hər zaman diqqət mərkəzində saxlayır, bununla bağlı ardıcıl tədbirlər görülür.





### Şəxsi heyətin peşəkarlığının artırılması diqqət mərkəzindədir

Vətən savaşına nəzər salsaq, görərik ki, hərbi qulluqçuların tapşırıqları peşəkarcasına yerinə yetirməsi həm də kurslarda və təlimlərdə qazanılan təcrübənin nəticəsidir. Vətən müharibəsində döyüşən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının xidmət yolu Təlim-Tədris Mərkəzindən və təlimlərdən başlayıb.

Təlim-Tədris Mərkəzində Əlahiddə Ümumqoşun Ordunun zabitləri və gizirləri müasir standartlar səviyyəsində döyüş əməliyyatlarının aparılmasının incəliklərini mənimsəyir, hərbi peşəkarlıqlarını daimi olaraq artırırlar. Mərkəzdə taktiki simulyasiya, trenajor, mədəni-kütləvi işin təşkili bölmələri, sənədli və tədris filmləri kinostudiyası, hərbi mətbəə yerləşir. Burada həmçinin zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı var.

Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulub. Trenajor zalında tank, artilleriya və digər zirehli texnikaların idarə olunması, eləcə də texniki və atış sistemləri üzrə trenajorlar quraşdırılıb. Trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və döyüş zamanı onlardan atəş açılması öyrədilir. Keçirilən təlimlərin sonunda qiymətləndirmənin aparılması isə şəxsi heyətin bilik səviyyəsini və peşəkarlığını müəyyən etməyə imkan verir. Simulyasiya mərkəzində artilleriya qurğularının taktiki-texniki xüsusiyyətləri, həmçinin atışın idarə olunması üzrə məşğələlərin praktik mənimsənilməsi üçün hər cür şərait yaradılıb, otaqlarda mərkəzdən idarə olunan və xüsusi proqram təminatına malik olan kompüterlər və proyektorlar quraşdırılıb. Atəş hazırlığı otağında yaradılan virtual təlim meydançası döyüş sursatı sərf etmədən müxtəlif şəraitdə atəşin idarəolunmasını həyata keçirməyə imkan verir. Həmçinin burada atəş tapşırıqlarını təhlil etmək və qiymətləndirmək, atəş göstəricilərinin dəqiqliyini müqayisə etmək mümkündür.



Mərkəzin kitabxanasında Azərbaycan və dünya ədəbiyyatı nümunələri, eləcə də ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən 16 mindən artıq kitab, qəzet və jurnal materialları toplanıb. Burada şəxsi heyətin gündəlik dövri mətbuatla tanış olmaq, hərbi və bədii ədəbiyyatları mütaliə etmək imkanı var.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri mütəmadi olaraq təlimlərdə iştirak edirlər. Hər tərəfdən dağ silsilələri ilə əhatə olunan muxtar respublikanın qışı soyuq və qarlı keçən yüksək dağlıq ərazilərində "Naxçıvan Qarnizonu Qoşunlarının uzlaşma planı"na əsasən, şəxsi heyətin şiddətli soyuqlarda döyüş tapşırıqlarını yerinə yetirmə bacarıqlarının və həyatda qalma vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə təlimlər keçirilir.

Öyrəndik ki, Naxçıvan Qarnizonu Qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimləri ilə yanaşı, komanda-qərargah təlimlərində, əməliyyat taktiki təlimlərində və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri ilə keçirilən döyüş atışlı birgə taktiki təlimlərdə xüsusi təyinatlılarımız peşəkarlıq nümayiş etdiriblər. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri Naxçıvan Qarnizonunun digər güc strukturlarının bölmələri ilə qarşılıqlı əlaqədə düşmənə əks-zərbə endirməsi, düşmən müdafiəsinin yaxın dərinliyindəki dağ aşırımlarını, təminat və təxliyə yollarını tutması, düşmənin mühüm obyektlərini məhv edərək döyüş texnikasını ələ keçirməsi tapşırıqları təlimlərdə uğurla yerinə yetirilib.

Məhz belə təlimlərdə qazanılan təcrübə 44 günlük Vətən müharibəsində öz bəhrəsini verdi və Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri tarixi qələbənin qazanılmasında mühüm rol oynadılar.

Çətin hava və relyef şəraitində fəaliyyət göstərə bilmə bacarığına malik olan xüsusi təyinatlılarımızla "Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda taktiki-xüsusi təlimlər də keçirilib. Bu təlimlərdə də yüksək peşəkarlıq nümayiş etdirən xüsusi təyinatlı bölmələrin şəxsi heyəti dağlarda praktiki döyüş bacarığını mükəmməl mənimsəyiblər.

### Əsgərlərin məişət şəraiti ən müasir standartlara uyğundur

Daha sonra orduya çağırılan gənc əsgərlərin məişət şəraiti ilə tanış olduq. "N" saylı hərbi hissədəki əsgər yataqxanaları və Əsgəri-Məişət Kompleksindəki şərait gösərir ki, burada hərbi həyata qədəm qoyan gənc əsgərlərin xidmət zamanı bütün məişət təminatları ən yüksək səviyyədədir.

Yataqxanalarda əsgərlərin istirahəti üçün hərtərəfli şərait yaradılıb. Üçmərtəbəli binalarda müasir səviyyədə məişət şəraiti yaradılıb, onların hər biri zəruri avadanlıqlarla təchiz edilib.

Əsgəri-Məişət Kompleksində poçt xidmətləri üçün otaq, mağaza və çay evi də hərbi qulluqçuların ixtiyarına verilib. Əsgərlərin ailələri ilə əlaqə saxlaya bilmələri üçün telefon rabitəsi yaradılıb. Əsgərlərin yeməyinin bişirilməsi, paltarlarının yuyulması isə hərbi hissədəki mülki işçilərə həvalə olunub. Kompleksin yemək salonlarında eyni vaxtda 3 min hərbçi qidalana bilər.

Kompleksin anbarları da müasir səviyyədə qurulub. Anbarlar müasir soyuducu kameralar və digər zəruri avadanlıqlarla təchiz edilib. Burada dərzi otağı, camaşırxana və qazanxana da mövcuddur. Hər bir sahədə istifadə olunan avadanlıqlar isə ən müasir standartlara uyğundur. Müasir hamam kompleksi də əsgərlərin ixtiyarındadır.

Bir sözlə, burada yaradılan şərait dövlətimiz tərəfindən əsgərlərin sosial məsələlərinin həlli istiqamətində atılan addımların ardıcıl xarakter aldığını bir daha nümayiş etdirir. Bu hərbi hissədə yaradılan şərait bir daha göstərir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər maddi-texniki bazası daha da gücləndirilən Azərbaycan Silahlı Qüvvələri haqlı olaraq dünyanın ən qüdrətli ordularından biri kimi tanınır.

Naxçıvanda onu da öyrəndik ki, ön xətdəki hərbi hissələrdə də xidmətin rahat və etibarlı təşkili məqsədi ilə inşa olunan binalarda əsgər və zabitlər üçün yataq yerləri, komandir heyəti üçün xidməti otaqlar, müxtəlif təyinatlı siniflər, idman zalları, tibb otağı, mətbəx, yeməkxana, əşya və ərzaq anbarları yaradılıb. Bölmələrin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilib. Mövqelərdə düşmən təxribatlarının qarşısını almağa hesablanmış tədbirlər görülərək müşahidə məntəqələri, səngər və əlaqə yolları əlverişsiz hava şəraitinə uyğunlaşdırılıb.

Naxçıvan Muxtar Respublikasında xalq-ordu birliyini özündə əks etdirən tədbirlərdən biri də artıq ənənə halını almış hərbi hissələrə sovqat aparılmasıdır. Naxçıvan əhalisi müxtəlif dövlət qurumlarının, müəssisə və təşkilatların nümayəndələri, ayrı-ayrı sahibkarlıq subyektlərinin təmsilçiləri hərbi hissələrə baş çəkir, əsgərlərə sovqat aparırlar. Əlamətdar və bayram günlərində ictimaiyyət nümayəndələrinin əsgərlərin yanında olması ordu ilə xalqın birliyinin daim bir təcəssümüdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov da tez-tez hərbi hissələrdə olur, xidmətin vəziyyəti, əsgərlərin şəraiti ilə yaxından maraqlanır.

### Naxçıvan Döyüş Şöhrəti Muzeyi

Naxçıvan Muxtar Respublikasında qonaqların böyük marağına səbəb olan ünvanlardan biri açıq səma altındakı Döyüş Şöhrəti Muzeyidir. Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan Naxçıvan Döyüş Şöhrəti Muzeyi Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümü ərəfəsində yaradılıb.

Muzey 26 adda eksponatla fəaliyyətə başlayıb. Qısa müddətdə onların sayı 41-ə çatdırılıb. Muzeydə müxtəlif illərdə döyüş növbətçiliyinə qəbul edilmiş və döyüş yolu keçmiş artilleriya üzrə müxtəlif haubitsa, top və minaatanlar, hava hücumundan müdafiə üzrə döyüş maşınları, "S-75", "S-125", "S-200" zenit raket kompleksləri, zenit qurğuları, aviasiya üzrə "SU-17" və "MİQ-21" döyüş təyyarələri, "YAK-50" idman-aerobatik təlim və ikinəferlik "YAK-52" idman-aerobatik təlim-məşq təyyarələri, "Mİ-8T" və "Mİ-24V" döyüş-nəqliyyat helikopterləri, mühəndis xidməti üzrə yerqazan və maneələğvetmə maşınları, zirehli tank və avtomobil texnikalarından tanklar, piyadanın döyüş maşınları, zirehli transportyor və döyüş kəşfiyyat dozor maşınları, dartıcılar, müxtəlif yük və minik avtomobilləri nümayiş etdirilir.

Ümumi sahəsi 13 min kvadratmetr olan Naxçıvan Döyüş Şöhrəti Muzeyində hər bir döyüş texnikası audi-məlumatlandırma sistemi ilə təmin edilib. Belə ki, nümayiş etdirilən hərbi texnikaların hər birinin yanında məlumat lövhələri qoyulub. Həmin lövhələrdə nümayiş etdirilən texnikaların istehsal ili, istifadə sahələri, texniki xüsusiyyətləri, döyüşlərdə iştirakı haqqında məlumatlar yerləşdirilib.

Onu da qeyd edək ki, burada nümayiş etdirilən hərbi texnikalar hazırda bir çox ölkələrin ordularında, eləcə də erməni hərbi birləşmələrində istifadə olunmaqdadır. Azərbaycan Ordusunun arsenalı müasir tələblərə yüksək səviyyədə cavab verən aparıcı silah sənayelərinin istehsalı olan hərbi texnikalarla təchiz olunduğundan bizim qoşunlarda onların istifadəsinə artıq ehtiyac qalmayıb.

Əlahiddə Ümumqoşun Ordunun uğurları və döyüş imkanları respublikamızda həyata keçirilən hərbi quruculuğun ən mükəmməl nümunələrindən biridir. Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqəti və qayğısı ilə bu ordu döyüş qabiliyyətini durmadan artırır, ən müasir hərbi imkanlara sahib olur. Bir sözlə, Naxçıvanın müdafiəsində mətinliklə dayanan Əlahiddə Ümumqoşun Ordu üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

*Bakı-Naxçıvan-Bakı*

# "Omikron" artıq təhlükəli həddə çatır

Dünyanı çənginə alan koronavirus pandemiyasının hələ ki sonuncu ştamı "Omikron" əksər ölkələrdə yoluxma sayında dominantlıq edir. Belə ki, koronavirusun sürətli yoluxuculuğa malik bu ştamı meydana çıxdığdan sonra dünyada infeksiyaya yoluxanların sayında kəskin artım müşahidə olunmağa başlayıb.



Ümumdünya Səhiyyə Təşkilatının yoluxucu xəstəliklər üzrə epidemioloqu və COVID-19 üzrə texniki qrupun rəhbəri Maria Van Kerkhove isə söyləyib ki, "Omikron"un "Delta"dan daha yüngül xəstəliyə səbəb olduğu barədə bəzi məlumatlar olsa da, əslində, belə deyil. Çünki insanlar hələ də "Omikron"a görə xəstəxanaya yerləşdirilirlər.

Artıq bir çox ölkələrdə bu ştamdan ölüm halları da qeydə alınmağa başlanılıb. Bəşəriyyəti təhdid altında saxlayan yeni növ koronavirusdan, o cümlədən onun ən yoluxucu ştamı olan "Omikron"dan qorunmağın yolu isə birmənalı olaraq vaksinasiya ilə mümkündür.

ÜST-ün baş direktoru Tedros Adhanom Gebreyesus da ötən ay Cenevrədə keçirdiyi brifinqdə vurğulayıb ki, dünyada "Omikron" ştamının hazırkı sürətlə yayılması şəraitində koronavirusun yeni variantlarının ortaya çıxmasını ehtimal edir. Buna görə də o, dünya ictimaiyyətini vaksinlərin və infeksiyaya qarşı mübarizənin digər vasitələrinin bərabər paylanmasını təmin etməyə çağırıb: "Əgər dünyada koronavirusa qarşı vaksinlərin paylanmasının hazırkı modeli dəyişdirilməsə, bəşəriyyət peyvənd bərabərsizliyinin ikinci və daha da ağır mərhələsinə qədəm qoya bilər".

### Ölkəmizdə COVID-19-un genetik variantlarının aşkar edilməsi üçün nəzarət gücləndirilib

Azərbaycanda ötən ilin yanvarından başlanılan peyvəndləmə prosesi həm stasionar, həm də səyyar şəkildə davam etdirilir. Həmçinin mütəxəssilər ölkəmizdə yoluxanların sayında "Omikron" ştamının dominantlıq etdiyini nəzərə aldıqda hazırkı dövrdə xüsusilə də "Buster" dozanın sürətlənməsini vacib hesab edirlər.

Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, peyvəndin 2-ci dozasının üzərindən 6 aydan çox keçmiş şəxslərin peyvənd sertifikatı fevralın 15-dən etibarlı hesab edilməyəcək.

Səhiyyə Nazirliyi Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun müavini Afaq Əliyeva məlumat verib ki, "Omikron" ştamının yoluxduruculuğu bir neçə dəfə yüksək olduğu üçün infeksiyanın dünya ölkələri arasında daha geniş yayılması müşahidə olunur. Son məlumatlara görə, hazırda dünyanın 110-dan çox ölkəsində koronavirus infeksiyasının "Omikron" ştamı müəyyən edilib. Bununla əlaqədar olaraq ölkədə koronavirusun genetik variantlarının aşkar edilməsi üçün nəzarət gücləndirilib: "Aparılan elmi tədqiqatların nəticələri bir daha göstərir ki, virusun yeni və sürətlə yayılan təhlükəli variantlarının yarada biləcəyi ağırlaşma hallarından qorunmağın ən effektiv yolu vaksinasiyadır".

### "Omikron" ilə təkrar yoluxma riski "Delta" virusu ilə yoluxmadan bir neçə dəfə yüksəkdir

Afaq Əliyeva deyib ki, koronavirus infeksiyasına qarşı ən yüksək müdafiəni peyvənddən sonra yaranan anticisimlər yaradır. "Omikron" ştamına yoluxanlar, xüsusilə də peyvənd olunmuşlar xəstəliyi daha yüngül keçirirlər. Böyük Britaniyanın Sağlamlıq Təhlükəsizliyi Agentliyinin elmi araşdırmaları göstərir ki, vaksinin "Buster" dozası 50 yaşdan yuxarı insanlarda "Omikron" ştamına qarşı müdafiəni 95 faiz artırır. Eyni zamanda vətəndaşlarda "Omikron"a görə xəstəxanaya düşmək riskini 88 faiz azaldır. Araşdırmalara görə, yeni ştamın inkubasiya dövrü daha qısadır, lakin "Omikron" ilə təkrar yoluxma riski "Delta" virusu ilə yoluxmadan bir neçə dəfə çoxdur. A.Əliyeva söyləyib ki, yayılan yeni ştamnan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 5 ay sonra gücləndirici doza ilə peyvəndlənmək vacibdir: "Azərbaycanda yoluxmaların sayının kəskin artmasına baxmayaraq, test nəticəsi müsbət çıxmış şəxslərin xəstəxanaya yerləşdirilməsi halları eyni dinamika ilə inkişaf etmir və gündəlik hospitalizasiya sayı sabit olaraq qalır. Bunun da əsas səbəbi odur ki, peyvənd olunanlar virusa yoluxduqda xəstəliyi yüngül keçirirlər".

Mütəxəssislər həmçinin "Omikron" da daxil olmaqla, koronavirusun bütün mövcud ştamlarına qarşı qorunmaq üçün vaksinasiya ilə yanaşı, sosial məsafəyə, maskalardan istifadəyə və gigiyenik qaydalara riayət etməyi olduqca vacib hesab edirlər.

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

**Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət**

| Ümumi | | Bu gün 31.01.2022 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 658 470 | Yeni yoluxanların sayı | 2 186 |
| Ümumi sağalanların sayı | 625 023 | Yeni sağalanların sayı | 764 |
| Aktiv xəstə sayı | 24 713 | Bugünkü test sayı | 7 232 |
| Ümumi test sayı | 6 156 388 | Bugünkü ölüm sayı | 14 |
| Ümumi ölüm sayı | 8 734 | | |

**Azərbaycan Respublikasının ərazisində COVID-19 əleyhinə aparılan vaksinasiya ilə bağlı son vəziyyət**

| Ümumi | | 31.01.2022 | |
|---|---|---|---|
| Vurulan vaksinlərin ümumi sayı | 12 000 767 | Gün ərzində vurulan vaksinlərin sayı | 18 |
| 1-ci doza vaksinlərin sayı | 5 230 388 | 1-ci doza vaksinlərin sayı | 0 |
| 2-ci doza vaksinlərin sayı | 4 742 174 | 2-ci doza vaksinlərin sayı | 5 |
| "Buster" doza vaksinlərin sayı | 2 028 205 | "Buster" doza vaksinlərin sayı | 13 |

# Əbədiyaşar alim



2022-ci il fevral ayının 1-də böyük alim və ictimai-siyasi xadim, akademik Cəlal Əliyevin haqq dünyasına qovuşduğu gündən 6 il ötür. O, bu həyatı cismən tərk etsə də, tələbələrinin, həmkarlarının və onu yaxından tanıyanların qəlbində yaşayır.

Cəlal müəllim həmişə söhbətlərində "Əgər Tanrı mənə ikinci bir həyat bəxş etsəydi, heç düşünmədən yenə də elm yolunu seçib həyatımı ona həsr edərdim" fikrini söyləyərdi. O, hər zaman "Elm-həqiqətdir!" demiş və bütün həyatını elmə, elmin təmizliyi və elmi həqiqətin təntənəsi prinsiplərinə həsr etmişdir. Alim özünün dərin zəkası, güclü erudisiyası və sanballı tədqiqatları ilə Azərbaycan elminin inkişafında misilsiz xidmətlər göstərmiş, eyni zamanda dünya elminə böyük töhfələr vermişdir. Azərbaycan elminin təşkilində, təbliğ olunmasında, dünyada tanınmasında və beynəlxalq elmi əlaqələrin qurulmasında onun xüsusi rolu olmuşdur. Cəlal Əliyev Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin, o cümlədən molekulyar biologiya, molekulyar genetika, gen və hüceyrə biotexnologiyası, riyazi və kompüter biologiyası, bioinformatikanın bünövrəsini qoymuş, bu sahələrin hərtərəfli inkişafının başlıca istiqamətlərini müəyyənləşdirmiş, fundamental və tətbiqi tədqiqatlarla zəngin elmi məktəb formalaşdırmışdır. Onun fəaliyyətinin bütün mərhələləri əsl həyat məktəbi, elmi ideallara xidmətin parlaq nümunəsidir.

Azərbaycan tarixində önəmli yer tutan ailədə dünyaya gəlmiş Cəlal Əliyevin çətinliklərlə dolu, keşməkeşli, lakin şərəfli ömür yolu bütünlüklə gərgin elmi və ictimai-siyasi fəaliyyətlərlə, həqiqət axtarışları ilə, böyük elmi nailiyyətlərlə, vətəninə, dövlətinə, xalqının bu günü və gələcəyinə verdiyi dəyərli töhfələrlə zəngin olmuşdur. Əsl elm fədaisi kimi həyatının ən çətin anlarında belə elmi tədqiqatlarını dayandırmayan bu böyük insanın keçdiyi şərəfli həyat yolu hər bir alim, o cümlədən tələbələri, ardıcılları üçün həyat dərsi, müdriklik və mükəmməllik məktəbi, elmi ideallara xidmətin parlaq nümunəsi olmuşdur. Akademik Cəlal Əliyevin yaratdığı elmi məktəb ildən-ilə inkişaf edir, onun əsərləri, elmi nailiyyətləri daim araşdırılır. Alimin zəngin elmi irsi, konsepsiyaları nəinki Azərbaycan elminin, dünya elminin parlaq səhifəsini təşkil edir.

Ulu Öndər Heydər Əliyev deyirdi: "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar. "Ensiklopedik bilikləri, elmi erudisiyasının dərinliyi, güclü məntiqi, dərin müşahidə qabiliyyəti ilə fərqlənən Cəlal Əliyev məhz dərin fundamental elmi böyük praktika ilə birləşdirməyi bacaran nadir alimlərdən idi.

Cəlal Əlirza oğlu Əliyev 1928-ci il iyun ayının 30-da qədim Naxçıvan şəhərində Azərbaycan tarixinə, dövlətçiliyinə, elm və mədəniyyətinə böyük şəxsiyyətlər bəxş etmiş bir ailədə dünyaya göz açmışdır. 1946-cı ildə Naxçıvan Pedaqoji İnstitutunun Təbiət elmləri fakültəsini, 1951-ci ildə Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, əmək fəaliyyətinə də 2-ci kursda oxuyarkən universitetin Bitki fiziologiyası kafedrasında laborant kimi başlamışdır. Cəlal Əliyev 1951-1954-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Bitki fiziologiyası laboratoriyasının aspirantı kimi akademik Müzəffər Abutalıbovun rəhbərliyi altında çalışmış, 1955-ci ildə "Buğdanın inkişafına və məhsuldarlığına mikroelementlərin təsiri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

Böyük azərbaycanlının elmi yaradıcılığını qarşısına qoyduğu məqsədlər, fundamental nəzəri və praktiki nəticələrinin ümummilli və bəşəri əhəmiyyəti, mövzu yeniliyi, orijinallığı baxımından əsasən iki mərhələyə bölmək olar:

1-ci mərhələ - 1950-1970-ci illəri əhatə edən dövr. Bu mərhələdə genişmiqyaslı və təcrübi şəkildə kənd təsərrüfatı bitkilərində (xüsusilə dənli bitkilərdə) gedən fizioloji və biokimyəvi proseslərin xüsusiyyətləri, bu bitkilərin məhsuldarlığına mikroelementlərin təsiri, bu amillərin fotosintez prosesi ilə qarşılıqlı əlaqəsi, fotosintez prosesinə xarici mühit amillərinin təsiri, habelə kənd təsərrüfatı bitkilərindən yüksək və keyfiyyətli məhsul alınmasında günəş enerjisinin faydalı iş əmsalını nəzərə almaqla bu prosesin optimallaşdırılması öyrənilmişdir. 1954-cü ildə ET Əkinçilik İnstitutunda kiçik elmi işçi kimi fəaliyyətə başlayan Cəlal Əliyev burada ilk günlərdən kənd təsərrüfatı bitkilərinin, xüsusən də dənli bitkilərin məhsuldarlıq proseslərini, onların fizioloji və biokimyəvi xüsusiyyətlərini tədqiq və yeni elmi yanaşmaları tətbiq etməklə ərzaq və ətraf mühit problemlərinin həllinə real töhfələr verən, ideal göstəricilərə maksimum yaxınlaşan bitki sortlarının yaradılmasını həyat və fəaliyyətinin məqsədlərindən biri olaraq seçmişdi. Bu dövrdə gənc alimin uğurlu elmi tədqiqatının nəticələri alimin 1971-ci ildə biologiya elmləri doktoru elmi dərəcəsi almaq üçün "Bitkilərin fotosintez fəaliyyəti, mineral elementlərlə qidalanması və məhsuldarlığı" mövzusunda müdafiə etdiyi dissertasiyasında mükəmməl və ətraflı olaraq öz ifadəsini tapmışdır.

2-ci mərhələ 1970-ci ildən mənalı həyatının sonlarına qədər olan dövrü əhatə edir. Bu dövrdə Cəlal müəllimin elmi yaradıcılığı öz zənginliyi, fundamental yeniliyi, biologiyanın yeni istiqamətlərinin (molekulyar biologiya, molekulyar genetika, gen və hüceyrə biotexnologiyası, riyazi biologiya, bioinformatika, kompüter biologiyası) yaranması, bu istiqamətdə dünyəvi əlaqələrin inkişafı ilə seçilir. Görkəmli alim 1976-cı ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1980-ci ildə isə həqiqi üzvü seçilmişdir. O, 1981-1990-cı illərdə Azərbaycan Elmlər Akademiyasının Biologiya Elmləri Bölməsinin akademik-katibi vəzifəsində çalışmışdır. Geniş diapazonlu elmi fəaliyyəti ilə bu böyük elm təşkilatçısı Azərbaycan elminin təşkili və inkişafında, dünyada tanınmasında, təbliğ olunmasında, qlobal elm məkanına inteqrasiyasının dərinləşdirilməsində, beynəlxalq elmi təşkilatlar və tanınmış xarici elm mərkəzləri ilə əlaqələrin qurulması və gücləndirilməsində misilsiz xidmətlər göstərmiş və dünya elminə dəyərli töhfələr vermişdir.

1970-ci ildən başlayaraq Cəlal Əliyevin rəhbərlik etdiyi qrup, laboratoriya və şöbələrdə aparılan kompleks tədqiqat işlərinin əsas istiqaməti kənd təsərrüfatı bitkilərinin potensial məhsuldarlığının reallaşdırılmasının fizioloji-genetik əsaslarını öyrənilməsinə yönəldilmişdir. Görkəmli alimin seleksiyaçı intuisiyası, hərtərəfli, dərin nəzəri və praktiki bilikləri, innovativ ideyaları, gərgin zəhməti sayəsində yeni intensiv buğda və digər bitki sortlarının yaradılması mümkün olmuşdur. Cəlal müəllim mürəkkəb torpaq-iqlim şəraiti olan Azərbaycanın müxtəlif bölgələrinə uyğun yüksək məhsuldar, quraqlığa, şaxtaya, xəstəlik və zərərvericilərə davamlı, şoran və şorəkət torpaqlarda da nisbətən yüksək məhsul vermək qabiliyyətinə malik hibrid nəsillərin alınmasında yerli ənənəvi buğda sortlarından istifadə olunmasına böyük üstünlük vermişdir. Xalq seleksiyası tərəfindən seçilmiş, Azərbaycanda uzun müddət əkilən, üstəlik, təbii seçmə nəticəsində yerli şəraitə uyğunlaşan davamlı "Sarı buğda", "Ağ buğda", "Qırmızı buğda", "Qaraqılçıq" və başqa buğda genotipləri müasir intensiv sortlarla hibridləşdirilərək yeni nəsillər alınmışdır.

Akademik Cəlal Əliyev yeni buğda sortlarının yaradılmasında, seleksiya prosesinin qısaldılmasında və səmərəliliyinin artırılmasında kompleks yanaşmanın vacibliyinə israr etmiş, seleksiyaçılarla bərabər hər zaman fizioloqların, kimyaçıların, fitopatoloqların, entomoloqların birgə fəaliyyət göstərmələrini məsləhət bilmişdir.

Onun tərəfindən və rəhbərliyi ilə yaradılmış bitki sortları respublikanın müxtəlif aqroiqlim bölgələrinin yerli şəraitinə uyğun olmaqla və ətraf mühit amillərinin təsirinə qarşı adaptiv xüsusiyyətlərini qorumaq qabiliyyəti, yüksək məhsuldarlıq və keyfiyyət göstəriciləri ilə seçilir. Hər hektardan 70-80 sentner taxıl əldə edən fermerdən hansı sortdan istifadə etdiyini soruşduqda onun qürurla: "Cəlal müəllimin sortudur" - deyə cavab verməsi Azərbaycan əkinçisinin daha əcnəbi seleksiyaçılardan asılı olmadığına inam yaradır. Bu, doğrudan da, hər bir vətənpərvər azərbaycanlı üçün çox böyük fəxrdir.

Akademik Cəlal Əliyev uzun illər ərzində toplanmış zəngin elmi və praktiki təcrübəsi, orijinal tədqiqatçı yaradıcılığı sayəsində Azərbaycanda mədəni taxıl bitkilərinin və onların yabanı əcdadlarının müxtəlif morfofizioloji əlamətlərə malik 10 minlərlə nümunədən ibarət genofondunun - gen bankının istifadəsi əsasında müasir dövrün tələblərinə cavab verən, müxtəlif torpaq-iqlim şəraitinə hesablanmış 60-dan çox qiymətli buğda sortunun yaradılmasına nail olmuşdur.

Akademik Cəlal Əliyevin bioloji müxtəlifliyin mühafizəsi və səmərəli istifadəsi sahəsində də fəaliyyəti təqdirəlayiqdir. O, bu müxtəlifliyə seleksiya üçün tükənməz mənbə kimi baxırdı. Akademik "Bioloji müxtəliflik bəşəriyyətin sərvətidir" məqaləsində göstərirdi: "Dünyada 15 milyondan çox canlı mövcuddur və hər gün onların 100-ə yaxını məhv olur. Lakin onların məhv olması bir çox hallarda hiss edilmir. Bəşəriyyət isə belə itkilərdən olduqca böyük ziyan çəkir. Təxminən 265 min bitki növündən yalnız 5 mini ərzaq məhsulları üçün becərilir... Elmi seleksiyada yüksək məhsuldar sortların yaradılmasında xəstəlik və zərərvericilərə azdavamlı formaların nəzərə alınmaması kənd təsərrüfatı bitkilərinin genetik ehtiyatlarını məhdudlaşdırmışdır. Yabanı formalardan daha davamlı genləri köçürməklə itirilmiş əlamətləri bərpa etmək olar".

Danılmaz faktdır ki, məhz novator-alim Cəlal Əliyevin uzaqgörən təşəbbüskarlığı, milli təəssübkeşliyi nəticəsində Azərbaycan elmində ilk dəfə olaraq biologiyanın ən müasir istiqamətlərindən olan biokimya, biofizika, molekulyar biologiya, molekulyar genetika, gen və hüceyrə biotexnologiyası, gen mühəndisliyi, riyazi və kompüter biologiyası, bioinformatika kimi elm sahələri inkişaf etdirilmiş, son dövrlərdə isə maşınöyrənmə üsullarının və süni intellektin biologiya problemlərinə tətbiqinə başlanılmış, bu elmlər üzrə yüksəkixtisaslı kadr potensialı formalaşdırılmışdır. Onun rəhbərliyi ilə biologiya və kənd təsərrüfatının bir çox nəzəri və praktiki məsələlərinin həllində riyazi metod və modelləşdirmədən, informasiya və kompüter texnologiyalarından istifadə olunmaqla tədqiqatların aparılması üzrə bir sıra iklərə imza atılmışdır. Azərbaycan elminin dünya elmi ilə ayaqlaşması, yuxarıda qeyd edilən sahələr üzrə imkan və potensialın, maddi-texniki və kadr bazasının yaradılması ilə əlaqədar dünyanın aparıcı elm mərkəzləri və tanınmış alimləri ilə elmi əlaqələrin yaranması və genişlənməsi də bir çox hallarda akademik Cəlal Əliyevin adı ilə bağlı olmuşdur.

Akademik Cəlal Əliyev həmişə gənc alimlərə arxa-dayaq olmuşdur. Onun biologiya, kimya, fizika, riyaziyyat, aqrokimya yönümlü müxtəlif ali təhsil müəssisələrindən şəxsi təşəbbüsü ilə xüsusi ustad himayəsi və uzaqgörənliklə seçərək AMEA-nın Botanika İnstitutunda və Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunda rəhbərlik etdiyi laboratoriya və şöbələrə işə cəlb etməklə təqribən 50 il ərzində yetişdirdiyi 300-ə yaxın alim bu gün Azərbaycanda və dünyanın ABŞ, Böyük Britaniya, Yaponiya, Rusiya, Türkiyə, Cənubi Koreya, Avstraliya, İsveç, Kanada, Almaniya və s. kimi onlarca qabaqcıl ölkəsinin tanlnmış elm və təhsil mərkəzlərində, nüfuzlu universitetlərində tədqiqatçı və pedaqoq kimi fəaliyyət göstərir, akademik Cəlal Əliyevin elmi məktəbini və ümumən, Azərbaycan elmini layiqincə təmsil edirlər. Onun bilavasitə elmi məsləhətçiliyi və rəhbərliyi ilə 15 elmlər doktoru, 81 elmlər namizədi hazırlanması da əlamətdar faktdır.

AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun yaradılması da akademik Cəlal Əliyevin adı ilə bağlıdır. Cəlal müəllim 1971-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Botanika İnstitutunda özünün elmi-tədqiqat qrupunu yaratmış, 1974-cü ildə bu qrup Fiziki-kimyəvi Biologiya sektorunun nəzdində Bioenergetikanın molekulyar əsasları laboratoriyasına çevrilmişdir. 1983-cü ildə bu laboratoriyanın bazasında Fotosintezin biokimyası, Gen mühəndisliyi, Fotosintetik aparatın molekulyar təşkili, Toxuma kulturası, Xloroplastların fotokimyası və Fotobiotexnologiya yaradıcı qruplarından ibarət Məhsuldarlıq Proseslərinin Molekulyar-Genetik Əsasları laboratoriyası yaradılmışdır. 1988-ci ilin sonunda bu qruplar müstəqil laboratoriyalara çevrilmiş və onların bazasında Məhsuldarlıq Proseslərinin Molekulyar-Genetik Əsasları şöbəsi təşkil olunmuşdur.

Akademik Cəlal Əliyevin qiymətli əmanəti və yadigarı olan AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu bu gün özünün yeni inkişaf dövrünü yaşamaqdadır. Bu fakt özünü əldə edilən elmi-tədqiqat nəticələrində, beynəlxalq əməkdaşlığın təşkilində və kadr hazırlığında xüsusilə göstərir.

İnstitutun Birləşmiş Krallığın Kembric Universiteti ilə, ABŞ-ın Franhofer Molekulyar Biotexnologiya Mərkəzi və Delaver Universiteti, Cənubi Koreyanın Pusan Milli Universiteti, Fransa Milli Kənd Təsərrüfatı Tədqiqatları İnstitutunun Bordo və Aviqnon Mərkəzləri, İtaliyanın Milli Tədqiqatlar Şurası Dayanıqlı Bitki Mühafizəsi İnstitutu, Almaniyanın Bonn və Osnabruk universitetləri, Türkiyənin Ankara, Mustafa Kamal Atatürk və Akdeniz universitetləri, Avstraliyanın Brisbon Universiteti, Rusiya EA-nın Biologiyanın Fundamental Problemləri və Bitki Fiziologiyası institutları, Moskva Dövlət Universiteti, Ukrayna MEA Molekulyar Biologiya və Genetika, Hüceyrə Biologiyası və Genetik Mühəndislik institutları, Belarusiyanın Biofizika və Hüceyrə Mühəndisliyi İnstitutu və s. ilə beynəlxaq elmi əməkdaşılq əlaqələri mövcuddur.

Cəlal müəllimin böyüklüyü həm də onun sadəliyində, təvazökarlığında idi. Dünyanın bütün ölkələrində bu böyük elm adamının kəşflərindən söhbət açılmasına baxmayaraq, o, bir dəfə də olsun özündən razılıq hissini büruzə verməmiş, sadə elm adamları arasında özünü heç kimdən fərqləndirməmişdir. Əməyinə verilən bütün qiymətləri alimlər ordusunun uğuru saymışdır. Cəlal Əliyev öz işində çox ciddi, tələbkar, ədalətli və hadisələri obyektiv qiymətləndirmək xüsusiyyətlərinə malik olmaqla yanaşı, mehribanlığı, xeyirxahlığı, qayğıkeşliyi ilə də fərqlənirdi.

Akademik Cəlal Əliyev daim axtarışda olan bir elm xadimi idi. Onun çoxillik axtarışları olduqca məhsuldar olmuş, apardığı elmi tədqiqatların nəticələri öz əksini Azərbaycanda və xaricdə nəşr olunmuş 25 fundamental monoqrafiya və kitabda, 800-ə qədər elmi əsərdə və 20 müəlliflik şəhadətnaməsində tapmışdır.

Cəlal Əliyev iştirakçısı olduğu mötəbər simpozium, konqres və forumlardakı dolğun çıxışları ilə Azərbaycan elmini layiqincə təmsil etmişdir. Eyni zamanda Beynəlxalq Fotosintez Cəmiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə 2011 və 2013-cü illərdə Bakı şəhərində böyük alimə həsr olunmuş "Davamlı inkişaf naminə fotosintez tədqiqatları" mövzusunda beynəlxalq konfranslar keçirilmişdir. 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə akademik Cəlal Əliyevin 90 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur.

Azərbaycan həqiqətlərini, daim qanı axan Qarabağ yarasının ağrılarını, xalqın torpaq itkisi ilə heç zaman barışmayacağını ən yüksək beynəlxalq tribunalardan dəfələrlə dünyaya bəyan etmiş millət vəkili Cəlal Əliyevin qaçqın və məcburi köçkünlərin məskunlaşdığı yerlərə səfərləri onlar üçün əsl bayrama çevrilərdi. O, ən nüfuzlu alimləri, beynəlxalq təşkilatların rəhbər və nümayəndələrini bü düşərgələrə aparar, insanların ağır həyat şəraitini onlara göstərər, bu insanlara həm maddi, həm də mənəvi dayaq olar, onlardan qayğı və dəstəyini, yardımlarını əzirgəməz, onları gələcəyə inamla baxmağa çağırardı. Cəlal müəllimin ən böyük arzularından biri torpaqlarımızın düşmən işğalından xilası, Xocalı faciəsinin qisasının alınması idi.

Tarixi zəfəri görməyə ömür vəfa etməsə də, bu gün böyük alim və şəxsiyyətin ruhu şaddır. Ona görə ki, 30 ilə qədər Ermənistanın işğalı altında qalmış doğma Qarabağ 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın qətiyyətli rəhbərliyi və Azərbaycan Ordusunun sücaəti sayəsində işğaldan azad edilmiş, ərazi bütövlüyümüz bərpa edilmişdir. Eyni zamanda Cəlal Əliyevin gənclik illərində elmi-tədqiqatlar apardığı Qarabağ Elmi-Tədqiqat Bazası da düşmən əsarətindən azad olunmuşdur. Hazırda bazanın bərpası istiqamətində işlərə başlanılmış, burada ötən il ilk səpin işləri aparılmışdır. Qarabağ torpaqlarının cənnətə çevrilməsi bu böyük şəxsiyyətin də arzularının çiçəklənməsi demək olacaq.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti,***
***AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik***

## İtkin düşmüş baş leytenant Fuad Bağırovun nəşi tapılıb

Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətində yerləşən bölmələrinin şəxsi heyətinin və xüsusi texnikanın cəlb olunması, eləcə də Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının iştirakı ilə aparılan axtarış-xilasetmə tədbirləri nəticəsində itkin düşən baş leytenant Bağırov Fuad Allahverdi oğlunun nəşi yanvarın 31-i saat 12:30 radələrində tapılaraq müvafiq qaydada ərazidən təxliyə edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər.

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçumuzun yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir.

**Allah rəhmət eləsin!**

## Komandoların hazırlığına xüsusi diqqət yetirilir






Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, ordumuzda həyata keçirilən islahatlar çərçivəsində yeni yaradılan Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissələrində xidməti döyüş fəaliyyətinin təşkilinə xüsusi diqqət yetirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Komando hərbi hissələrində bütün obyektlər müasir tələblərə uyğun inşa edilib, lazımi avadanlıq və inventarla təchiz olunub. Burada xidməti döyüş fəaliyyətinin keyfiyyətli təşkili və asudə vaxtın səmərəli keçirilməsi üçün müvafiq şərait yaradılıb.

Yaradılan şərait komandolarla döyüş hazırlığı planı əsasında yüksək səviyyədə intensiv təlim-məşqlərin keçirilməsinə imkan verir.

Vətən müharibəsində əldə edilmiş təcrübələr nəzərə alınmaqla, türkiyəli peşəkar zabitlərin iştirakı ilə komandoların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və praktiki vərdişlərinin təkmilləşdirilməsi təmin edilir. Real döyüş şəraitinə maksimum uyğunlaşdırılmış şərtlərlə keçirilən məşğələlərdə komandolar kəskin relyefli ərazilərdə hərbi helikopterlər və digər üsullarla yerdəyişmələri yerinə yetirirlər.

Təlimlər zamanı komandolar birbaşa təmas vəziyyətində maneələr zolağından keçid, dağlıq ərazilərdə döyüş aparma, müdafiənin dərinliyinə sızma, eləcə də şərti düşmənin müvəqqəti yerləşdiyi sığınacaqlarda və yaşayış məntəqələrində müqavimət göstərən təxribat-diversiya qrupunu mühasirəyə alma, zərərsizləşdirmə tapşırıqlarını müvəffəqiyyətlə icra edirlər.

## Sərnişinlər Ağdam şəhərinin dağıntıları və tarixi abidələrlə tanış olublar







Yanvarın 31-də Bakı-Ağdam-Bakı marşrutu ilə hərəkət edən növbəti sərnişin avtobusu Ağdam şəhərinə gəlib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, avtobusda sərnişinlərə yolboyu bələdçi tərəfindən keçilən ərazilər barədə məlumat verilib. 40 sərnişinin olduğu avtobus saat 12 radələrində Ağdam şəhərinə daxil olub. Sərnişinlər İmarət kompleksi ilə tanış olub, Cümə məscidini və Şəhidlər xiyabanını ziyarət edib, Çörək muzeyinin və Dram Teatrının qalıqlarına baxıb, həmçinin Qiyaslı kənd məscidində və Şahbulaq qalasında da olublar. Səfər iştirakçılarına Ağdam şəhərinin hazırkı vəziyyəti və burada həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumat verilib. Təhlükəsizliyin təmin olunması məqsədilə avtobusun hərəkəti polislər tərəfindən müşayiət edilib.

Səfər iştirakçıları təəssüratlarını AZƏRTAC ilə bölüşüblər. Ağdam sakini Nahid Məmmədov deyib: "30 ilə yaxın həsrətdən sonra Vətənimə gəlmişəm. Dayandığımız İmarət stadionunda uşaqlığım keçib. Futbolla, "Qarabağ" klubu, klubun uşaq futbolu, keçirilən oyunlar, festivallarla bağlı xatirələrim var. Ağdamın bu vəziyyətini görmək kədər doğursa da, sevincliyik. Buraya anam və qızımla gəlmişəm. Keçmiş, bu gün və gələcəyin körpüsünü qurmağa gəlmişik. Avtobus marşrutunun təşkilatçılarına minnətdarlığımı bildirirəm".

Mütəllim Şükürov deyib: "Ağdamda anadan olmuşam. Uşaqlığım, gəncliyim burada keçib. 28 ildən çox torpaq həsrəti çəkmişəm. Bu gün bu həsrətə son qoyuldu. Doğma torpağıma qayıtdığım üçün sevincimin hədd-hüdudu yoxdur. Şükürlər olsun Allaha! Bu sevinci bizə yaşatdığı üçün Ali Baş Komandan, Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Allahdan şəhidlərimizə rəhmət, qazilərə cansağlığı diləyirəm. Bakı-Ağdam-Bakı avtobus marşrutunun açılmasını alqışlayıram. Bu işdə zəhməti olanlara minnətdaram".

Qeyd edək ki, Bakı-Ağdam-Bakı avtobus reysi həftədə iki dəfə həyata keçirilir. Bakıdan Ağdama avtobus bileti 9 manat 40 qəpikdir. Marşrut xətlərinə bilet satışı onlayn qaydada "Yolumuz Qarabağa" portalı vasitəsilə həyata keçirilir. Sərnişinlər gediş və qayıdış biletlərini əvvəlcədən eyni vaxtda sifariş etməlidirlər. Müəyyən imtiyazlı şəxslərə ildə bir dəfə bu istiqamət üzrə pulsuz bilet almaq imkanı yaradılıb. Bu kateqoriyaya Vətən Müharibəsi qəhrəmanları, Milli qəhrəmanlar, şəhid ailəsinin üzvləri, Qarabağ müharibəsi əlilləri aiddir. Sərnişin daşınması ilə bağlı müəyyən olunmuş kateqoriyalar üzrə növbəliliyin təmin edilməsi, kvotalara riayət edilməsi və güzəştlərin tətbiqi məqsədilə onlayn bilet satışı xidməti işğaldan azad olunmuş ərazilərə giriş icazəsi sisteminə, həmçinin COVID-19 virusuna yoluxma risklərinin minimuma endirilməsi üçün müvafiq informasiya sistemlərinə inteqrasiya olunub.

Yeni marşrutlar üzrə sərnişindaşımanı həyata keçirən sürücülər mina təhlükəsizliyinə dair təlimlərə cəlb edilib və onlara əsas təhlükəsizlik qaydalarına dair təlimat kitabçaları təqdim olunub.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Dünya postpandemiya dövrünə qədəm qoyur



### Bu da ölkəmizə daha çox xarici investisiyanın yatırılmasına imkan verir

Dünya alimlərinin böyük əksəriyyətinin fikrincə, koronavirus pandemiyası cari ildə tarixə qovuşacaq və bu səbəbdən də bütün ölkələr postpandemiya dövrünə qədəm qoyur. Nüfuzlu beynəlxalq maliyyə qurumlarının və bankların mütəxəssislərinin hesablamalarına görə, bu il dünya iqtisadiyyatı böhrandan çıxıb inkişafa doğru ilk addımlarını atacaq.

İndi qlobal iqtisadiyyatda yaranan geriliyin aradan qaldırılması investisiya qoyuluşundan çox asılıdır. İqtisadiyyatın dinamik inkişafı onun fasiləsiz kapitallaşması ilə sıx bağlıdır. Bu il dünyada ölkələr arasında investisiyaya cəlb edilmə ilə bağlı ciddi rəqabət olacağı gözlənilir. Azərbaycan ötən illərdə olduğu kimi, xarici sərmayənin cəlb edilməsinin önündə gedən ölkələrdən olacaq. Bu əminliyin əsas səbəbi ölkəmizdəki münbit investisiya mühitinin formalaşmasıdır. Azərbaycanda yabançı sərmayənin qorunması üçün mükəmməl qanunvericilik bazası mövcuddur. Bu üzdən illərdir ki, Azərbaycana 10 milyardlarla dollar xarici sərmayə yatırılıb.

Məlumdur ki, sərmayə qoyuluşu həssas və riskli bir məsələdir. Buna görə də sərmayədarlar yatırımı riskə atmamaq üçün hər şeyi min ölçüb, bir biçirlər. MDB və bəzi Şərqi Avropa dövlətlərinə nisbətən Azərbaycana daha çox sərmayə yatırılması da dövlətimizə olan inam və qanunvericiliklə yabançı sərmayələrin qorunmasıdır.

Mövcud münbit investisiya mühiti hələ pandemiyanın başa çatmadığı cari ildə də kapital qoyuluşuna tam mane ola bilmir. Bu il yanvarın 13-də Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən 300 milyon dollara yaxın dəyərində "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisinə başlanması buna bariz misaldır. Onu da vurğulayaq ki, tikiləcək stansiya dünyanın bu sahədə ən iri şirkətlərindən biri olan "ACWA Power"in ölkə xaricində ən çox sərmayə qoyduğu layihədir.

Prezident İlham Əliyev "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının təməlqoyma mərasimində Azərbaycanın dünyada etibarlı tərəfdaş ölkə kimi tanındığını bildirərək demişdir: "Azərbaycanda xarici investisiyaların qorunması da ən yüksək səviyyədədir. Xarici investorlar yaxşı bilirlər ki, bizim sözümüz imzamız qədər qiymətlidir və dəyərlidir. Bu möhtəşəm Gülüstan sarayında 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" artıq uzun illərdir ki, icra edilir və müqavilədə bir söz, hətta bir vergül belə dəyişməyib. Bütün digər müqavilələrə, böyük xarici şirkətlərlə imzalanmış müqavilələrə bizim münasibətimiz buna bənzərdir. Ona görə Azərbaycana 10 milyardlarla dollar həcmində xarici sərmayə qoyulub. Bu sərmayə qoyuluşu davam edir. Xüsusilə dünyada hökm sürən maliyyə böhranı, eyni zamanda pandemiya ilə bağlı iqtisadi fəallığın təbii olaraq azalması - bütün bunlar mənfi amillərdir. Amma buna baxmayaraq, qardaş ölkənin şirkəti Azərbaycana böyük həcmdə investisiya qoyuluşuna qərar verib, bu qərarı qəbul edib və bu gün biz Xızı rayonunda inşa ediləcək 240 meqavat gücündə külək elektrik stansiyasının təməlini qoyuruq".

Ölkəmizin 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbə təkcə hərbi-siyasi baxımdan deyil, həm də iqtisadi baxımdan yeni reallıqlar yaratdı. Nə sülh, nə müharibə şəraitində olan ölkəmizə 10 milyardlarla dollar sərmayə yatırılıb. İndi müharibə qələbəmizlə başa çatdıqdan sonra sərmayə qoymaq istəyən ölkə və şirkətlərin sayı durmadan artacaq. Məsələn, işğaldan azad edilən ərazilərə kapital yatırmaq üçün 900-dən çox şirkət burada iş görmək barədə müraciət etmişdir. Onlardan 300-dən çoxu xarici şirkətlərdir. Almaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Voltqang Maniglə Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Bauman Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevlə görüşərək ölkəmizin işğaldan azad olunmuş ərazilərində ölkələrindəki şirkətlərin iş görmək istədiklərini bildirmişlər.

Ukrayna şirkətləri işğaldan azad olunan ərazilərdə çalışmaq üçün İqtisadiyyat Nazirliyinə, həmçinin Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət etmişlər. Bu ölkənin iş adamları işğaldan azad edilən ərazilərdə kənd təsərrüfatı, körpü tikintisi, infrastruktrur, energetika və meliorasiya sahələrində kapital qoyuluşunu həyata keçirmək istəyindədirlər.

Məlumdur ki, pandemiya dünyada iqtisadi fəallığın azalmasına səbəb olub. Bu, iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kapital qoyuluşunda da özünü göstərir. Həmin səbəbdən ötən il ölkə iqtisadiyyatına sərmayə qoyuluşu, xüsusilə xarici investisiyanın yatırılması bir qədər azalsa da, bu iş davam etmişdir. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, 2021-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 16 milyard 127 milyon manat vəsait yönəldilmişdir. Ümumi sərmayənin 10 milyard 536,7 milyon manatı məhsul istehsalı sahələrinin, 4 milyard 560,8 milyon manatı xidmət sahələrinin, 1 milyard 029,5 milyon manatı isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Hesabat dövründə ümumi sərmayənin 46,6 faizi dövlət, 53,4 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. İstifadə olunan sərmayə qoyuluşunun 68,3 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Ölkə iqtisadiyyatına kapital qoyuluşunda daxili sərmayələr üstünlük təşkil edir. İndiki pandemiya şəraitində xarici sərmayə qoyuluşu dünyada azaldığı bir vaxtda daxili sərmayənin çəkisinin artması müsbət haldır. Belə ki, ötən il ərzində iqtisadiyyatın kapitallaşması davam etmişdir. Bu da ölkə iqtisadiyyatının ayaqüstə qalmasında önəmli rol oynamışdır.

Dünyada pandemiya üzündən baş verən iqtisadi durğunluğa baxmayaraq, xarici sərmayə qoyuluşu davam etmişdir. Hesabat dövründə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 4 milyard 332,7 milyon manat vəsait yönəldilmişdir. Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 3 milyard 970,3 milyon manatı Birləşmiş Krallıq, ABŞ, Türkiyə, Yaponiya, İsveçrə, Norveç, Nargin adaları, Malayziya, Fransa, Rusiya və İran sərmayədarlarına məxsus olmuşdur.

Qeyd edildiyi kimi, cari ildə pandemiyanın səngiməsi gözlənilir. Bu da dünyada yenidən iqtisadi fəallığın artmasına səbəb olacaq. Buna görə də cari ildə ölkəmizə daha çox sərmayə qoyuluşu gözlənilir. O da məlumdur ki, işğaldan azad edilən ərazilərə 300-dən çox xarici şirkət sərmayə qoymaq istəyindədir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Qarabağa avtobusla ildə bir dəfə səfər etmək məhdudiyyəti aradan qaldırılıb

### Bakıdan Şuşaya avtobus reyslərinin sayı artırılır

Vətəndaşların çoxsaylı müraciətləri nəzərə alınaraq ilkin mərhələdə tətbiq edilmiş bir dəfə səfər etmək məhdudiyyəti aradan qaldırılıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, artıq vətəndaşlar hər hansı bir məhdudiyyət olmadan istənilən istiqamət üzrə səfərlər edə bilərlər.

Qeyd edək ki, marşrutlar üzrə sərnişindaşımanı həyata keçirən sürücülər və avtobuslarda sərnişinləri müşayiət edən könüllülər mina təhlükəsizliyinə dair təlimlərə cəlb edilib, onlara əsas təhlükəsizlik qaydalarına dair təlimat kitabçaları təqdim olunub. Sərnişinlərin məlumatlandırılması və təlimatlandırılması üçün avtobuslarda mina təhlükəsizliyi ilə bağlı videoçarxlar nümayiş etdirilir, həmçinin hər bir oturacağın üzərinə təlimat broşürü yerləşdirilib. Səfər zamanı avtobusları Daxili İşlər Nazirliyinin əməkdaşları müşayiət edirlər.

İşğaldan azad olunmuş ərazilərə avtobus marşrutlarının təhlili, həmçinin tələbat və bilet satışı dinamikası, eləcə də vətəndaşların istəkləri nəzərə alınaraq, avtobusların hərəkət cədvəllərində müəyyən dəyişikliklər edilib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən verilən başqa bir məlumatda bildirilir ki, təhlillər nəticəsində Bakı-Şuşa-Bakı marşrutuna tələbatın daha çox olduğu müəyyən edilib və bu istiqamətdə əlavə reysin açılması qərara alınıb. Fevralın 16-dan etibarən Bakı-Şuşa-Bakı istiqamətində artıq həftədə 2 dəfə deyil, 3 dəfə avtobus reysi həyata keçiriləcək.

## Rusiyanın kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən müəssisə və təşkilatları ilə onlayn görüş keçirilib

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və Rusiya Federasiyasının Azərbaycandakı Ticarət Nümayəndəliyinin dəstəyi ilə bu ölkənin kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən müəssisə və təşkilatları ilə onlayn görüş keçirilib.

Kənd Təsərrüfatı Nazirliyinin müvafiq şöbələri və elmi-tədqiqat institutlarının əməkdaşlarının iştirak etdikləri görüşdə Rusiya Federasiyasının Dağıstan Respublikası, Volqoqrad və Tümen vilayətlərinin ixraca dəstək mərkəzləri tərəfindən seçilmiş şirkətlər kənd təsərrüfatının bitkiçilik sahəsində məhsuldarlığın artırılması, torpaq münbitliyinin yaxşılaşdırılması, xəstəliklərə qarşı bitki mühafizə vasitələri ilə bağlı məhsulların və texnologiyaların təqdimatını keçiriblər. Rusiya şirkətlərinin nümayəndələri Azərbaycanın yerli şirkətləri və elmi-tədqiqat institutları ilə birlikdə kənd təsərrüfatında ən son yenilikləri tətbiq etməyə hazır olduqlarını bildiriblər.

Həmçinin qeyd olunub ki, Aqrar İnnovasiya Mərkəzi mütəmadi olaraq Azərbaycanda kənd təsərrüfatı məhsul istehsalçıları üçün innovativ məhsul və texnologiyaların təşviqi və təbliği məqsədilə regionlarda innovasiya festivalları keçirir və bu festivallarda Rusiya şirkətləri də öz məhsulları ilə iştirak edə bilərlər.

Görüşün sonunda Azərbaycanın aqrar sektorunda innovasiyaların tətbiqinin mümkünlüyünü və effektivliyini yoxlamaq məqsədilə Rusiya şirkətlərinin texnologiyalarının ölkəmizdə sınaqdan keçirilməsi üçün birgə pilot layihələrin həyata keçirilməsinə dair razılıq əldə olunub.

## Şəmkirdə yeni məktəb binası inşa olunur



Təhsil sahəsində reallaşan çoxsaylı layihələr, tədrisin müasirləşdirilməsi istiqamətində atılan addımlar, yeni tikilən və əsaslı təmir olunan təhsil müəssisələrinin müasir avadanlıqlarla təchiz edilməsi Şəmkirdə gənc nəslin təlim və tərbiyəsində müsbət rol oynayır.

Bu yaxınlarda rayonda daha bir tədris ocağının inşasına başlanmışdır. Məhəmməd Füzuli adına humanitar və təbiət fənləri üzrə məktəb-lisey üçün inşa edilən yeni binanın tikintisi sürətlə davam edir.

Yeni binada şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılır. 5 tədris korpusundan ibarət olan binanın iki korpusu 4, digər üç korpusu 3 mərtəbəlidir. 1600 şagirdlik məktəb binasında müasir sinif otaqlarından əlavə, akt və idman zalları, laboratoriya, yeməkxana da nəzərdə tutulur. Bundan başqa, məktəbin həyətində yaşıllıq salınacaq, içməli su anbarı, su nasosu stansiyası, qazanxana inşa ediləcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Dövlət Statistika Komitəsi bildirir ki...

Ötən ilin dekabrında Azərbaycanda ticarət əməliyyatlarının dəyəri 3 milyard 702,2 milyon ABŞ dolları olub.

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, ticarət əməliyyatlarının ümumi dəyərinin 2 milyard 407,2 milyon dolları ixracın, 1 milyard 295 milyon dolları isə idxalın payına düşüb.

* * *

2021-ci ildə Azərbaycanda ən çox idxal əməliyyatları dekabrda aparılıb.

Dövlət Gömrük Komitəsindən keçən il idxal əməliyyatlarının ən yüksək göstəricisi dekabrda, ən aşağı göstəricisi isə yanvarda qeydə alınıb. Belə ki, dekabrda idxal əməliyyatlarının dəyəri 1 milyard 295 milyon ABŞ dolları, yanvarda isə 790,3 milyon dollar təşkil edib.

Qeyd edək ki, ötən il idxalın dəyəri 11 milyard 705,7 milyon dollar olub.

* * *

Ötən il Azərbaycandan MDB ölkələrinə 1 milyard 791 milyon 71 min ABŞ dolları dəyərində məhsul ixrac edilib.

Bu göstərici 2020-ci ilə nisbətən 484 milyon 976 min dollar çoxdur.

2021-ci ildə Azərbaycanın MDB ölkələrindən idxal etdiyi məhsulun dəyəri isə 2 milyard 926 milyon 570 min dollar olub.

## Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolunun inşası davam edir

Prezident İlham Əliyev tərəfindən 2021-ci ilin oktyabrın 3-də Tərtər rayonunda təməli qoyulan Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyasına gedən avtomobil yolunun inşası davam etdirilir.

Avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrindən biri sayılır. Dörd yaşayış məntəqəsini birləşdirən yolun ümumi uzunluğu 22 kilometr təşkil edəcək.

Qarabağın inkişaf planı nəzərə alınmaqla avtomobil yolunun 19 kilometrlik hissəsi II, 3 kilometrlik hissəsi isə IV texniki dərəcəyə uyğun inşa edilir. Müvafiq olaraq yolun layihə üzrə hərəkət hissəsinin eni 19 kilometrlik hissədə 9, 3 kilometrlik hissədə 6, torpaq yatağının eni 14 və 10, çiyin hissələrin eni isə 2x2.5 (5 m) və 2x2 (4 m) metr olacaq.

Hazırda yolboyu genişmiqyaslı tikinti işləri aparılır. Yolun ilk 1.8 kilometrlik hissəsində asfaltlanma işləri icra olunub və səki daşları yeniləri ilə əvəz olunub. Yolun 19 kilometrlik hissəsində layihəyə uyğun olaraq torpaq yatağı tikintisi aparılıb. Bunun üçün yararsız qrunt müxtəlif dərinliklərdə qazılaraq çıxarılıb, əks-dolğu işləri aparılmaqla kipləşdirilib. Yolun relyefdən aşağı olan hissələrində torpaq yatağının qaldırılması üçün yararlı qrunt tökülərək yayılıb, yol yatağı genişləndirilib.

Avtomobil yolunun altından suların ötürülməsini təmin etmək məqsədilə mövcud borular yeniləri ilə əvəz olunur, lazım olan yerlərdə isə əlavə olaraq suötürücü boruların quraşdırılması işləri icra olunur. Torpaq yatağı hazır olan hissələrdə yol əsası inşa edilir. Daha sonra layihəyə uyğun olaraq yola yeni asfalt-beton örtüyünün döşənməsi işləri icra olunacaq.

Layihə çərçivəsində İncə çayı üzərində yeni avtomobil körpüsünün tikintisi də nəzərdə tutulur.

Layihənin sonuncu mərhələsində avtobus dayanacaqlarının inşası, avtonəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədilə yol nişanı, km göstəricisi və məlumatverici lövhələrin quraşdırılması işləri aparılacaq.

Tərtər rayonunun Talış, Goranboy rayonunun Tapqaraqoyunlu və Qaşaltı Qaraqoyunlu kəndlərini keçməklə Naftalan şəhərinə doğru uzanan yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişi ilə bərabər bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək, həmçinin Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə rahat və təhlükəsiz hərəkəti təmin edəcək.



## Çin-Avropa marşrutu üzrə nəqliyyat bağlantısı gücləndirilir

2-ci Çin-Avropa marşrutunun Xəzər dənizindən keçən hissəsində nəqliyyat bağlantısının gücləndirilməsi məqsədilə Bakı-Türkmənbaşı-Bakı istiqamətində 2022-ci ildən etibarən 2 gəmi fəaliyyət göstərəcək.

"ADY Konteyner" MMC-dən AZƏRTAC-a bildirilib ki, MMC və "Türkmənistan Nəqliyyat və Logistika Mərkəzi" ASC-nin birgə operatoru olduğu "Şair Sabir" və "Mahmud Rəhimov" gəmiləri Bakı-Türkmənbaşı-Bakı istiqamətində konteynerlərin daşınmasını həyata keçirəcək. Gəmilərin sayı ilə yanaşı, həftəlik reyslərin də sayı hava şəraitindən asılı olaraq 2 dəfəyə çatdırılacaq. Qeyd olunan limanlar arasında ilk gəmi 2019-cu ilin aprel ayında fəaliyyətə başlayıb. Bu günədək marşrut üzrə hər iki istiqamətdə 20 futluq ifadədə 17 min 500 konteyner daşınıb.

Bakı Limanı və Türkmənbaşı Limanı arasında gəmi bağlantısının gücləndirilməsi üzrə layihənin həyata keçirilməsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO), "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC və Türkmənbaşı Beynəlxalq Dəniz Limanının dəstəyi nəticəsində mümkün olub.

Bu addım "Asiya və Sakit okean regionu-Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa nəqliyyat marşrutu"nun inkişafına hesablanıb. Bu transkontinental multimodal dəmir yolu marşrutu 2019-cu ildə, "Azərbaycan Dəmir Yolları" QSC və müvafiq ölkələrin dövlət dəmir yolları qurumlarının iştirakı ilə yaradılıb. 2021-ci ilin dekabr ayında marşruta




Türkiyə də qoşulub. Hazırda marşrut üzrə konteyner yükləri Türkiyədən Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə, həmçinin Gürcüstanın Poti və Batumi limanlarından Özbəkistana, Türkmənistana, Qırğızıstana və əks istiqamətdə daşınır.

Marşrut üzrə yükdaşımaların həcmi ötən il 2020-ci ilə nisbətən 101 faiz artıb. Yükdaşımalar Türkiyənin "Pasifik Eurasia Logistics", Gürcüstanın "GR Logistics and Terminals", "ADY Konteyner", "Türkmənistan Nəqliyyat və Logistika Mərkəzi", Özbəkistanın "Ozbektemıryolekspeditsiya" və "Qırğızıstan Dəmir Yolları"nın operatorluğu ilə həyata keçirilir. Tərəflər marşrutun təkmilləşdirilməsi istiqamətində bir sıra səmərəli görüşlər keçirib. Marşrut üzrə ən yaxşı göstərici 2021-ci ilin mayında əldə edilib. Belə ki, Türkiyənin İzmir şəhərindən Qırğızıstanın Oş şəhərinə konteynerlər 18 günə çatdırılıb. Operatorların məqsədi bu istiqamət üzrə yükdaşıma müddətini 12 günədək azaltmaqdır.

## Baytarlıq Elmi - Tədqiqat İnstitutu beynəlxalq sertifikata layiq görülüb

Kənd Təsərrüfatı Nazirliyi Baytarlıq Elmi -Tədqiqat İnstitutu müştəriləri üçün ardıcıl, etibarlı xidməti təmin edən ISO 9001:2015 "Keyfiyyət İdarəetmə Sistemi" sertifikatı əldə edib.

Hollandiyanın Qida və Kənd Təsərrüfatı sahəsində ixtisaslaşmış KIWA beynəlxalq akkreditasiya qurumu tərəfindən keçirilmiş audit zamanı Baytarlıq Elmi-Tədqiqat İnstitutunun xidmətləri beynəlxalq standartların tələblərinə uyğun olduğu sübut edildikdən sonra elmi müəssisə bu sertifikata layiq görülüb.

ISO 9001:2015 sertifikatı maraqlı tərəflərin ehtiyaclarına cavab verən xidmətlərin ardıcıl şəkildə təmin edilməsi üçün sertifikatlaşdırılmış "Keyfiyyət İdarəetmə Sistemi"dir. Bu standartı tətbiq etmək İnstituta xidmət istifadəçiləri üçün prosesləri mümkün qədər sadələşdirməyə və rəqabət üstünlüyünü qorumağa imkan verir.

ISO 9001:2015 sertifikatına sahib olmaq Baytarlıq Elmi-Tədqiqat İnstitutunun davamlı olaraq yüksək standartların tətbiqində maraqlı olmasının göstəricisidir. ISO 9001 standartına riayət etmək institutun fəaliyyətini daha da səmərəli edir və xidmətlərinin keyfiyyətini artırır. Müştərilərin çoxu beynəlxalq standartların tələblərinin tətbiq olunduğu qurumlarla işləməyə üstünlük verir. Buna görə də akkreditasiyaya malik olmaq onların istəklərinə dəstək olmaqdır.

Baytarlıq Elmi - Tədqiqat İnstitutu bu nailiyyətə qısa müddət ərzində (2018-2021-ci illər) nail olub.

# “Azercell” ahıl yaşına çatmış abunəçilərinin xidmətindədir

## “Azercell Könüllüləri” və şirkətin Mobil Müştəri Xidmətlərinin əməkdaşları müharibə və əmək əlilləri üçün pansionatda olublar

Aparıcı mobil operator “Azercell Telekom”un öz əməkdaşlarından ibarət “Azercell Könüllüləri” xeyriyyə qrupu uzun illərdir ki, əhalinin daha həssas təbəqələri üçün müxtəlif təşəbbüslərlə çıxış edərək fərqli yaş qrupundan olan insanlara öz qayğısını göstərməkdə davam edir. Bu dəfə “Azercell Könüllüləri” öz sovqatları ilə Bilgəh qəsəbəsində yerləşən 9 saylı Müharibə və Əmək Əlilləri üçün Pansionatda olublar. Könüllülərin həmin sosial xidmət mərkəzinə növbəti səfəri zamanı onları “Azercell” Mobil Müştəri Xidmətləri də müşayiət edib.



Beləliklə, özünün yeni *“Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!”* strateji məqsədilə “Azercell” komandası pansionatda məskunlaşmış təqaüdçü abunəçilərinin rabitə ehtiyaclarını qarşılamaq, onlara bu xidmətlərdən daha rahat şəkildə faydalanmağı mümkün etmək kimi təşəbbüslə çıxış edib. Ölkədə ilk dəfə olaraq pansionat sakinlərinə yerində və tam təmənnasız xidmət göstərərək “Azercell” Mobil Müştəri Xidmətləri gün ərzində 50-dən artıq təqaüdçüyə 30-dan çox müştəri əməliyyatı həyata keçirib, yaxınları ilə daha rahat əlaqə yaratmaq üçün mobil telefonun müxtəlif funsksiyalarından yararlanmaqda yardımçı olub.

Səfər zamanı bir qayda olaraq “Azercell”in Müştəri Xidmətləri Mərkəzlərində göstərilən bütün növ xidmət və əməliyyatlar, o cümlədən yeni təsis, sim kartın dəyişdirilməsi və nömrənin bərpası kimi əməliyyatlar həyata keçirilib. Ahıl yaşlı həmvətənlərimizi rabitə xidmətləri vasitəsilə dünyaya daha yaxın etmək məqsədilə təşkil olunmuş bu təşəbbüsdən pansionat sakinləri çox razı qaldıqlarını söyləyərək “Azercell” əməkdaşlarına öz minnətdarlıqlarını ifadə ediblər.

Xatırladaq ki, bundan öncə “Azercell” Mobil Müştəri Xidmətləri mobil rabitə təminatçıları arasında ilk dəfə olaraq Şuşaya səfər edərək iki gün ərzində hərbçilər, tibbi və Şuşa şəhərinin bərpasında iştirak edən digər işçi heyəti üçün pulsuz rabitə xidmətləri həyata keçirib və növbəti aylar ərzində işğaldan azad olunmuş digər bölgələrə də səfər etməyi planlaşdırıb.

“Azercell Könüllüləri” xeyriyyə qrupu da şirkətin digər xidmət strukturları ilə birgə əhalinin daha həssas, daha çox qayğıya ehtiyacı olan təbəqələri üçün bundan sonra da sosial təşəbbüslər həyata keçirməyi qarşısına məqsəd qoyub.

Təkrar

# “Azərenerji” ASC 240 MVt gücündə külək-elektrik stansiyaların mövcud enerjisistemə inteqrasiya işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56;).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: “Kapital Bank” ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işlər üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də, yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim elədiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyalarının, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə təcrübəsi olması barədə təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, peşəkar mütəxəssislərinin olmasını təsdiq edən tərcümeyi-halları və ya digər sənədlər (əmək kitabçası və s.);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 fevral 2022-ci il saat 15:00-a qədər bank təminatını və tender təklifi isə 09 mart 2022-ci il saat 15:00-a kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına, Tender və Müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 10 mart 2022-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda (online qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iştirak edə bilərlər.

***Tender komissiyası***

◆ Dünya gündəmi

# Fransa elitaları və Afrikanın ən yoxsul ölkələri

## Paris yerli əhali arasında gözlənilməz problemlə üzləşib

Hazırda Fransanın qızıl ehtiyatlarının həcmi 2436 ton təşkil edir. Lakin Beşinci respublikanın ərazisində bir dənə də olsun qızıl mədəni və yataq yoxdur. Parisə dünya reytinqində mövqeyini qoruyub saxlamağa Afrika dövlətlərindən başlanğıc götürən qeyri-leqal resurs axını kömək edir. Qara qitənin problemlərinin böyük hissəsini həll edə, onu prinsipcə yeni səviyyəyə çıxara biləcək sərvət birbaşa Avropanın qızıl anbarlarına göndərilir.



Lakin indi vəziyyət dəyişir. Antifransa əhvali-ruhiyyəsinin artması materikdə narazılıqlara səbəb olub. Beləliklə, Paris yerli əhali arasında etiraz şəklində gözlənilməz problemlə üzləşib. Afrikalılar keçmiş metropoliyanı saxlamaqdan imtina edirlər və ona qapını göstərirlər.

Federal Xəbərlər Agentliyinin beynəlxalq redaksiyası Fransanın qızıl ehtiyatının nədən qaynaqlandığını və avropalı məmurların nəyə görə Rusiyanı öz cinayətlərində ittiham etməyə çalışdıqlarını müəyyənləşdirib.

### Gözə kül üfürmək

Qara qitədə sürətli təsir itkisi avropalı siyasətçiləri Rusiyaya qarşı təcavüzkar ritorikaya əl atmağa təhrik edib. Təbiidir ki, Qərb Moskvanın regionda uğurunun və populyarlığının miqyasını və onun Afrika ölkələrinə göstərdiyi yardımı görməyə bilməz. Lakin əvvəllər nəzarət altında olan ərazilərdə qüvvələrin bu nisbəti müstəmləkəçiləri qane etmir.

Keçmiş metropoliyadan fərqli olaraq, Kreml yataqların nəzarətsiz şəkildə talan edilməsi ilə məşğul olmur. Daha çox dövlət Rusiya ilə əməkdaşlığa can atır və Qərb ölkələrinin yırtıcı maraqlarını təmin etməkdən imtina edirlər.

Bununla əlaqədar Paris növbəti dezinformasiya kampaniyasını açmaq qərarına gəlib. İndi Avropa elitaları heç bir dəlil olmadan Moskvanı, onilliklər boyunca Afrikada özlərinin məşğul olduqları işlərdə, bir çox respublikaların suverenliyinə etinasız yanaşmada ittiham etməyə çalışırlar.

Məsələn, Fransanın xarici işlər naziri Jan-İv Le Drian “Journal du Dimanche” qəzetinə müsahibəsində rusiyalı mütəxəssisləri Bamakonu talan etməkdə günahlandırıb: “Onlar artıq indidən xuntanın müdafiəsi müqabilində ölkənin resurslarından istifadə edirlər. Onlar Malini qarət edirlər”.

Siyasi analitik Roman Romanovun fikrincə, bu cür əsassız hücumlar Qərbi Afrikada Rusiyanın mövcudluğu ilə əlaqədar rəsmi Parisin iflasa uğraması qorxusu və qıcıqlanması ilə izah edilir. Avropalılar anlayırlar ki, Fransanın neomüstəmləkəçi təsiri azalır və o, fövqəladə itkilər verir: “İndi Yelisey sarayı öz problemlərini Rusiya Federasiyasının üzərinə qoymağa çalışır. Bundan başqa, Moskvanı günahlandırmağa çalışırlar ki, biz Afrikada müstəqil dövlətlərin daxili işlərinə müdaxilə edirik. Problem ondan ibarətdir ki, Fransanın uzun müddət Qara qitənin bəzi ölkələrində rəsmi hərbi mövcudluğu var idi və o, özünü tənqid etmirdi.

İndiki halda Rusiya orada formalaşan yeni hökumətlərə suverenlik əldə etməyə çox kömək edir. Əgər əvvəllər onlar Qərb dövlətlərinin gizli koloniyaları olmuşdusa, indi Moskva bəzi iqtisadi və ticarət əməkdaşlığı müqabilində bu ölkələrə keçmiş metropoliya dövlətlərindən asılı olmamaq imkanı verir. Bu, Fransanı, Makronu, xarici işlər nazirini əsəbiləşdirir, çünki onlar yaranmış vəziyyətdə tamamilə gücsüzdürlər”.

Fransaya qaçaqmalçılıq axını haqqında Le Drian susur. Yelisey Sarayı beynəlxalq ictimaiyyətin Malidə və bir sıra digər dövlətlərdə Beşinci respublikanın gizli saxladığı sirlərdən agah olmasına hazır deyil.

### Qızıla görə istismar

Mali ən böyük qızıl ehtiyatları olan Afrika ölkələrinin üçlüyündə yerləşir. Bu, hətta Bamako müstəqillik qazandıqdan sonra da respublikanın resurs bazasının istismarından imtina etməyən Parisin xeyrinə idi.

Əgər əvvəllər Paris heç bir problem olmadan sənaye miqyasında ölkəni talan edirdisə, indi o, öz cinayətlərini ört-basdır etmək üçün ehtiyatlı davranmalı olur.

Hələ 2012-ci ildə hərbi müdaxilə başlanandan bəri Parisin həyata keçirdiyi bir sıra siyasi manipulyasiyalar nəticəsində öz adamları İbrahim Bubakar Keyta Malidə hakimiyyətə gəlib. O, Prezident kimi vətəninin xarici aktyorlar tərəfindən total şəkildə talan edilməsinə qarşı heç bir addım atmayıb.

Beşinci respublika radikal qruplarla vuruşaraq Malini ildən-ilə daha yoxsul ölkəyə çevirirdi. 2013-cü ildə vətəndaşların 36 faizindən çoxu dilənçi vəziyyətində yaşayırdı. Ölkədə demək olar ki, ali təhsilli insanlar yox idi. Keytin özü isə Parisdə təhsil almışdı.

Təxmini hesablamalara görə, Malidən ildə 15 tondan artıq qızıl qeyri-leqal şəkildə çıxarılır ki, bu da 860 milyon ABŞ dolları təşkil edir. Əsas problem ondan ibarətdir ki, qaçaqmalçılıq metalının böyük hissəsi kustar yolla əldə olunur və onun dövriyyəsini izləmək çox çətindir.

### Təhlükəli vasitəçi

Fransa dəfələrlə yaraqlılara yardım etməkdə ifşa olunub. Malinin Baş naziri bu yaxınlarda çıxışında keçmiş metropoliyanı radikallarla əməkdaşlıqda ittiham edib. Siyasətçinin sözlərinə görə, onun əlində parçalanmış qruplaşmaların üzvlərindən alınan təkzibedilməz faktlar var.

Malidə terrorçuların gəlirinin iki əsas mənbəyi var: narkotiklər və qiymətli resurslar. Quldur birləşmələrinin fəallaşdığı andan etibarən mədənlərin əksəriyyəti cinayətkarların nəzarətinə keçib. Məhz xammal qaçaqmalçılığından əldə olunan pulların hesabına quldurlar arsenala yiyələnmək və öz döyüş potensialını artırmaq imkanı qazanıblar.

“Qızıl-yaraqlılar-Fransa” zənciri Yelisey sarayının ən dəhşətli sirridir və onun çoxsaylı cinayətlərinin sübutudur. Rusiyanın Afrikada nüfuzunu artırmasına aqressiv şəkildə etiraz edən Paris məhz onu ört-basdır etməyə çalışır.

### Mali fransızlar üçün yetərli deyil

Parisin iştahası sərhəd tanımır. Mali Fransanın xammal bazasına çevrilən yeganə Afrika dövləti deyil. MAR da buna bənzər bir tale yaşayıb. Fosten-Arkanj Tuaderin hakimiyyətə gəlməsindən əvvəl ölkə bütün mümkün sahələrdə total şəkildə talan edilib.

Paris Mərkəzi Afrika Respublikasının meşələrini kütləvi şəkildə qırıb. “Legno insanguinato” (“Qana boyanmış meşə”) qrupunun hesabatına görə, İFB fransız şirkəti döyüşçüləri maliyyələşdirib və qanunsuz olaraq Avropaya ağac ixrac edib. Satışdan əldə olunan pulun bir hissəsi Fransada yerləşdirilərək yaraqlıların ərzaqla və silahla təmin olunmasına yönəldilib.

Həmçinin keçmiş metropoliya tütünün qaçaqmalçılığı və uran mədənləri ilə bağlı fırıldaqçılıqla məşğul idi. Yerli işçilər heç bir müdafiə geyim vasitələri təmin edilmədən zəhərli və radioaktiv elementlərlə təmasda olublar.

### Limit bitir

Əgər Fransa xarici siyasətində dəyişikliklər etməsə və qaçaqmalçılığa ümidini davam etdirsə, yaxın gələcəkdə onu resurs vakuumu şəklində xoşagəlməz sürpriz gözləyir. Mali hökuməti qəti şəkildə sülhü ölkəyə qaytarmaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək niyyətindədir.

Münaqişə olmadığı təqdirdə, Paris terror qruplaşmaları ilə əməkdaşlığa əsaslanan qiymətli metalların və radioaktiv elementlərin qeyri-leqal kanallarının böyük payını itirəcək. Beşinci respublikanın gələcəyi müasir reallıqlara uyğunlaşa bilməsi və lazımi qazıntıların qanuni çıxarılması üsulunu tapmasından birbaşa asılıdır.

Hazırda isə əminliklə yalnız bunu demək olar: afrikalılar bundan sonra keçmiş metropoliyaya, milyonlarla insanın həyat keyfiyyətini yaxşılaşdıra biləcək sərvətlərinin kiminsə talamasına imkan verməyəcək.

***P.S.*** *Son məlumata görə, Mali hökuməti Fransanın bu ölkədəki səfiri Joel Meyerdən 72 saat ərzində ölkədən çıxmağı tələb edib.*

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***

Təkrar

# “Azərenerji” ASC “Cəbrayıl Enerji Qovşağının tikintisi (1-ci mərhələ)” işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 5 000 (beş min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: “Kapital Bank” ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işlər üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də, yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 50 000 000 (əlli milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim elədiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyalarının, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə təcrübəsi olması barədə təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, peşəkar mütəxəssislərinin olmasını təsdiq edən tərcümeyi-halları və ya digər sənədlər (əmək kitabçası və s.);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 fevral 2022-ci il saat 15:00-a qədər bank təminatını və tender təklifi isə 09 mart 2022-ci il saat 15:00-a kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına, Tender və Müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 10 mart 2022-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda (online qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının rəhbəri Elgin Həbibullayevə əzizi

**PƏRVANƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İxtiyar Hüseynli Elgin Həbibullayevə əzizi

**PƏRVANƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Aparatının rəhbəri İlqar Əhmədova atası

**İSMAYIL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi İsmayıllı suvarma sistemləri idarəsinin rəisi Fazil Həsənova anası

**SÜRƏYYA HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Biologiya və onun tədrisi metodikası kafedrasının dosenti Nizami Namazova

**ANASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5175
Sifariş 287
Qiyməti 40 qəpik